www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 10 iyun 2019-cu il Bazar ertəsi № 123 (7293) Qiyməti 60 qəpik

Xəbər

**Azərbaycanlı uşaq Moskvada faciəvi şəkildə öldü**

yazısı səh.14-də

# AZƏRBAYCANA QARŞI YENİ HİYLƏGƏR PLAN - İRƏVANIN 2 MƏKRLİ HƏDƏFİ

Ermənistan son 11 ildə ilk dəfə Gürcüstanın xeyrinə, Rusiyanın əleyhinə mövqe sərgilədi - səbəb; düşmənin "Qərbə satılmağa hazırıq!" mesajını zəruri edən amillər; Tiflisin və Kremlin reaksiyası nə olacaq?..




yazısı səh.8-də

## Balaca Zəhranın oğurlanmasının cəmiyyətə verdiyi əsas dərs

Mütəxəssislər həyəcan təbili çalırlar; "Uşaqlarını qaraçılara verib, faizlə diləndirilməsi halları artıb"; "Zəhra ilə bağlı hadisə faciə ilə də nəticələnə bilərdi..."

yazısı səh.4-də

Gündəm

**Ermənilərin Türkiyənin iki vilayətinə səfəri sərt etiraz doğurdu**



İşğalçı ölkədən gələnlərə Van və Qars bələdiyyələrində xüsusi qayğının səbəbi; **Fazil Mustafa:** "Bu, iki qardaş ölkənin strateji maraqlarına ziddir..."

yazısı səh.9-da

**Müxalifətin hakimiyyətə gəlmək ümidi qalırmı -düşərgədən iki fərqli baxış**

yazısı səh.3-də

*Sabiq polis rəisi:*

**"Narkotik aludəçisi ailəsi üçün təhlükəlidir və təcrid edilməlidir"**

yazısı səh.5-də

**Tanınmış politoloq Azərbaycana partizan müharibəsinə başlamağı təklif etdi**

yazısı səh.3-də

**Abdulbari Gozalın "dövlət ticarətlə məşğul olmasın" fikrinə iqtisadçı şərhi**

yazısı səh.4-də

**İstanbul kritik seçki astanasında - rəqiblərin şansları**

yazısı səh.12-də

**Axı niyə beləyik? - Macarlarla oyundankənar barbarlıq...**

yazısı səh.14-də

**Lapşindən Azərbaycanla bağlı növbəti həyasızlıq**

yazısı səh.2-də

**Bakı zooparkında bir heyvan da qalmayıb - reportaj**

yazısı səh.13-də

**Bu insanlara Günəş vannası olmaz - həkimdən xəbərdarlıq**

yazısı səh.14-də

**Mövsümündə satılmayan qarpız-yemiş: yeyək, yeməyək?**

yazısı səh.10-da



**Vətənə dönən İsgəndər Həmidova həkimlər kənd həyatını məsləhət görüblər**

yazısı səh.3-də



*Hadi Rəcəbli:*

**"Gedək, "17 villamı" göstərim"**

yazısı səh.6-da



*Tahir Kərimli:*

**"Surət Hüseynovla üz-üzə gəlsəm, heç nə deməərəm"**

yazısı səh.7-də

**10 iyun 2019**

YENİ MÜSAVAT
N 123 (7293) 10 iyun 2019



## Saakaşvilinin oğlu siyasətçi olmaq istəyir

**Gürcüstanın eks-prezidenti Mixail Saakaşvilinin Avropada yaşayan böyük oğlu Eduard Saakaşvili dünyanın ən yaxşı 7 tələbəsindən biri olub. Eduard Saakaşvili "Sourtmori" universitetini bitirib. Maraqlıdır, Saakaşvili oğlunun təhsil sahəsindəki uğuruna nə dərəcədə kömək edib?**

Gürcüstan parlamentində təmsil olunan azərbaycanlı deputat, Vahid Milli Hərəkat Partiyasının üzvü Azər Süleymanov Modern.az-a açıqlamasında maraqlı məlumatlar verib. Saakaşvili ilə dost olan azərbaycanlı deputat bildirib ki, Eduard hər zaman biliyi və dünyagörüşü ilə hamıdan seçilib. "Saakaşvilinin oğlu hələ məktəb illərindən həmyaşıdlarından fərqlənirdi. Hətta Gürcüstanda tələbə olarkən "Ginnesin rekordlar kitabı"na düşmüşdü. Amerikada 7 fərqli tələbədən biri olub. Burada gen məsələsini danmaq olmaz. Eduard atasının genini daşıyır. Fəxredici haldır ki, Gürcüstan vətəndaşı Eduard Saakaşvili Amerikada xarici tələbələr arasından seçilməyi bacarıb".

Azər Süleymanov qeyd edib ki, Saakaşvili oğluna kömək etməyib: "Eduard təhsil sahəsində nailiyyətlər əldə edərkən Saakaşvili deyirdi ki, bu uşaq öz gücünə bunları əldə edib. "Eduardın təhsilinə bir ata olaraq kömək etməmişəm. Eduard təkbaşına hər bir şeyi qazanıb" deyirdi".

Azər Süleymanovun sözlərinə görə, Saakaşvilinin oğlu siyasətçi olmağı düşünür. "Eduardın hədəfi siyasətçi olmaqdır. Bu yolda irəliləməyə çalışır. Gələcəkdə necə siyasətçi olacağını isə zaman göstərəcək", - deyə o qeyd edib.

## Bu gün Bakıda 32° isti olacaq



**Bu gün Bakıda və Abşeron yarımadasında hava günəşli olacaq. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən Musavat.com-a verilən məlumata görə, şimal-şərq küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. Havanın temperaturu gecə 19-23° isti, gündüz 28-33° isti, Bakıda gecə 21-23° isti, gündüz 30-32° isti təşkil edəcək. Atmosfer təzyiqi 763 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 60-70 %, gündüz 35-45 % olacaq.**

Abşeron çimərliklərində gözlənilən hava şəraitinə gəlincə, şimal çimərliklərində (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) şimal-şərq küləyi əsəcək, dəniz suyunun temperaturu 20-21° isti təşkil edəcək. Cənub çimərliklərində (Türkan, Hövsan, Sahil, Şıx) şimal-şərq küləyi əsəcək, dəniz suyunun temperaturu 22-23° isti təşkil edəcək.

Azərbaycanın rayonlarında iyunun 10-da hava şəraiti əsasən yağmursuz olacaq. Lakin günün birinci yarısında bəzi dağlıq rayonlarda şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Dolu düşəcəyi ehtimalı var. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 18-23° isti, gündüz 33-38° isti, dağlarda gecə 11-16° isti, gündüz 18-23° isti təşkil edəcək.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

# UEFA: Bakı "AVRO-2020"ni qəbul etməyə hazırdır

**"Bakı tez bir zamanda özünü populyar qəbul edən şəhər kimi təqdim etməyi bacardı. Azərbaycan paytaxtı beynəlxalq idman tədbirlərinin keçirilməsi üçün çox şeylər təklif edə bilər. Bakı "AVRO-2020"nin 12 qəbul edən şəhəri olmağa hazırdır".**




UEFA-nın saytında yerləşdirilən xəbərdə belə deyilir. Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) baş katibi Elxan Məmmədov paytaxtın "AVRO-2020"nin dörd final oyununun keçirilməsi üçün hazırlandığı, eləcə də, azarkeşləri Bakıda nələrin gözlədiyindən danışıb.

"Biz gələcəkdə Bakının idman mərkəzinə çevrilməsi üçün strategiya hazırlamışıq və tədricən də bu məqsədə çatırıq. Bakı idman mərkəzinə çevriləcək. AVRO oyunlarının keçirilməsi futbolun inkişaf etdirilməsi, daha çox insanın futbola cəlb edilməsinə gətirib çıxaracaq. Futbol heç vaxt inkişafdan qalmayacaq bir idman növüdür. Bundan əlavə, son bir neçə ildə onun populyarlığı nəzərəçarpacaq dərəcədə yüksəlib. Düzdür, digər idman növləri də var ki, onlara da maraq artır. Buna baxmayaraq futbol idman növləri içərisində ən populyarıdır. Bizim üçün futbola ölkədə və bütövlükdə regionlarda marağın səviyyəsini qoruyub saxlamaq vacibdir. Bizim qazancımız o olacaq ki, daha çox uşaq öz kompyuterlərini bir kənara qoyub futbol oynamaq üçün küçəyə çıxacaq. Bu da sağlam həyat tərzinin inkişafına və daha sağlam millətin böyüməsinə səbəb olacaq",- deyə E.Məmmədov bildirib.

AFFA-nın baş katibi bildirib ki, 2020-ci ildə biz bütövlükdə AVRO-nun Bakıda və qonşu ölkələrdə bütöv tarixini yazacağıq: "Çünki biz istəyirik ki, bizim bütün region AVRO-2020-dən xüsusi emosiya hiss etsin. Şəhərdə müxtəlif rəngarəng diqqət çəkən tədbirlər keçiriləcək və biz fan-zonaların iş müddətinin uzadılmasına hazırlaşırıq. Bununla da insanların ora gəlib zövq almasına, sonra isə gedib öz komandalarına azarkeşlik etmələrinə şərait yaratmağa çalışırıq" (Trend).

# Müavinətlərin təyinatı qaydasına dəyişiklik edilib



**Nazirlər Kabineti "Pensiya yaşına çatmasına, əlilliyinə və ya sağlamlıq imkanlarının məhdudluğuna görə könüllü işdən çıxmış, dövlət qulluğu vəzifəsində Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 23.2-ci maddəsi ilə müəyyən edilmiş minimum qulluq stajına və əmək pensiyası almaq hüququna malik olmayan dövlət qulluqçularına təyin edilən ömürlük müavinətin təyin olunması Qaydasında dəyişikliklər edib. Bu barədə qərarı baş nazir Novruz Məmmədov imzalayıb (Report).**

Qərara əsasən, Nazirlər Kabinetinin 2004-cü il 4 fevral tarixli qərarı ilə təsdiq edilmiş "Pensiya yaşına çatmasına, əlilliyinə və ya sağlamlıq imkanlarının məhdudluğuna görə könüllü işdən çıxmış, dövlət qulluğu vəzifəsində "Dövlət qulluğu haqqında" Qanunun 23.2-ci maddəsi ilə müəyyən edilmiş minimum qulluq stajına və əmək pensiyası almaq hüququna malik olmayan dövlət qulluqçularına təyin edilən ömürlük müavinətin təyin olunması Qaydası"nın 3-cü hissəsinin birinci cümləsinə (Müavinət almaq hüququ olan şəxs heç bir müddət məhdudiyyəti olmadan istənilən vaxt müavinətin təyin edilməsi üçün müvafiq təsdiqedici sənədlər (arayışlar) təqdim etməklə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun aidiyyəti şəhər, rayon şöbəsinə müraciət edə bilər. Müavinət təyin edən orqan tərəfindən müavinəti almaq üçün edilən müraciətə 10 iş günü ərzində baxılır), 4-cü hissəsinin birinci abzasına (Müavinətin təyin edilməsi üçün şəxsin ərizəsi ilə birlikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun şəhər, rayon şöbəsinə aşağıdakı təsdiqedici sənədlər təqdim edilməlidir) və 8-ci hissəsinə (Müavinətin ödənilməsinin dayandırılmasına səbəb olan müvafiq hallar barədə müavinəti alan şəxs və ya onun vəfatı ilə əlaqədar ailə üzvlərindən biri 5 gün müddətində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun müvafiq şəhər, rayon şöbəsinə məlumat verməyə borcludur) ismin müvafiq hallarında "şəhər, rayon şöbəsi" sözlərindən sonra ismin müvafiq hallarında "və ya "DOST" mərkəzi" sözləri əlavə edilib.



## Lapşindən Azərbaycanla bağlı növbəti həyasızlıq

**2017-ci ilin fevralında Azərbaycan dövləti əleyhinə açıq çağırışlar səsləndirdiyinə, eləcə də Azərbaycanın dövlət sərhədlərini qanunsuz olaraq keçdiyinə görə həbs edilən Aleksandr Lapşin bu günlərdə ölkəmiz əleyhinə yeni həyasız çağırış səsləndirib.**

Moderator.az xəbər verir ki, Azərbaycan dövlətinin mərhəməti sayəsində azadlığına qovuşan Lapşin uydurma bəyanatla çıxış edərək bildirib ki, guya Bakı həbsxanasında saxlanılan zaman onu öldürməyə çalışıblar. Bütövlükdə öz həbsini qanunsuz hesab edən A.Lapşin "Azərbaycanın cəzalandırılmasının vacibliyini" dilə gətirib və ABŞ-ı Azərbaycanın bu ölkədəki aktivlərinə həbs qoymağa səsləyib. İki il bundan öncə məhz qanunları pozduğu üçün həbs edilən Lapşin bu addımın rəsmi Bakının qanunsuz davranışlarına qarşı mübarizə baxımından faydalı ola biləcəyini bildirib.

Xatırladaq ki, Belarusda tutularaq, 2017-ci il fevralın 7-də Azərbaycan Respublikasına ekstradisiya edilən Lapşin Bakı Ağır Cinayətlər Məhkəməsi onu 3 il müddətinə azadlıqdan məhrum etmişdi, daha sonra əfv edilərək azadlığına qovuşub. Lapşinin ABŞ-dakı Azərbaycan aktivlərinə həbs qoyulması ilə bağlı çağırışı isə onun ölkəmizə olan qərəzli münasibətinin hələ də dəyişmədiyini, öz böhtan və iftiralarından imtina etmək fikrində olmadığını göstərir. Eyni zamanda, onun vaxtaşırı zühur edərək həyasızcasına Azərbaycana qarşı müxtəlif səpkili çağırışlar etməsi onu açıqca göstərir ki, Lapşin kimlərinsə əlində çoxdəfəlik istifadə vasitəsinə çevrilib. Heç şübhəsiz, burada erməni barmağı da yox deyil və onu sifarişlə Azərbaycana qarşı danışdırırlar. Amma Lapşinin iç üzü çoxdan ifşa edilib və bu kimi cəhdlərin uğursuzluğa düçar olacağı bəllidir.

YENİ MÜSAVAT
N 123 (7293) 10 iyun 2019

**Türkiyədə müalicə olunan sabiq daxili işlər naziri İsgəndər Həmidov iyunun 8-də axşam saatlarında vətənə qayıdıb. Onu hava limanında tərəfdarları qarşılayıblar. Səhhəti tam düzəlməyən sabiq nazir bir müddət Şamaxıda dincələcək, mətbuatdan kənarda qalacaq.**

# Vətənə dönən İsgəndər Həmidova həkimlər kənd həyatını məsləhət görüblər

## Şəhriyar Məcidzadə: "O, aktiv siyasi fəaliyyətlə də məşğul olmamalıdır"

## Ağasif Şakiroğlu: "Müalicəsini aldıqdan sonra bizlərlə olacaq"



Bu barədə "Yeni Müsavat"a sabiq nazirin qardaşı oğlu, etatist.com internet qəzetinin təsisçisi Şəhriyar Məcidzadə məlumat verdi: "İsgəndər bəyi qarşılayanlar sırasında mən də var idim. Qısa söhbətimiz oldu və sonra evinə getdi. Bir müddət Şamaxıda olacaq. İmmunitetinin güclənməsi üçün kənd həyatında bir müddət yaşaması lazımdır. Həkimlər bunu məsləhət görüblər. Ona qətiyyən yük düşməməlidir. Aktiv siyasi fəaliyyətlə də məşğul olmamalıdır. Bir müddət rayonda qaldıqdan sonra təkrar müayinəyə gedəcək. İsgəndər bəy elə bir söz demədi. Sadəcə olaraq mediaya, dostlara, narahat olan hər kəsə təşəkkürünü bildirdi".

İ.Həmidovun lideri olduğu Azərbaycan Xalq Hərəkatının dönəm sədri, Gələcək Azərbaycan Partiyasının rəhbəri Ağasif Şakiroğlu ölkədən kənarda olmasının sabiq naziri sarsıtdığını söylədi: "İsgəndər bəy bizimlə söhbətində vətəni və milləti üçün darıxdığını ifadə etdi. Onun vətənə və millətə necə bağlı olduğunu bilirsiniz. Vətəndən 1 gün belə uzaqda qalmaq onun üçün çox ağrılı idi. Baxmayaraq ki, qardaş Türkiyədə, doğma torpaqda idi, amma yenə də Azərbaycandan uzaq qalması onu sarsıtmışdı. Gördüyüm onu deməyə əsas verir ki, vətəndə müalicəsi daha sürətli gedəcək. Bir qədər bu müalicənin mənəvi tərəfləri də var. Elçibəyin xəstə vaxtlarını xatırlatdı və elə bir vaxtda onun yanında ola bilməməsindən üzüldüyünü dilə gətirdi. Həbs olunan və azadlığa buraxılan AXH-çilərlə bağlı məlumat vermək istədim. Yaxınların reaksiyasından belə başa düşdüm ki, olanları bilmir. Bilib də stress keçirməsi səhhətinə mənfi təsir göstərə bilər. Bu səbəbdən məlumat verməmədim. Mənə elə gəldi ki, İsgəndər Həmidova mediani izləməyə icazə verilmir. Yaxınları ələvə stressdən qorxurlar. Ümumi olaraq AXH ilə maraqlandı. Dönəm sədri olaraq uğurlar arzuladı. Siyasətlə məşğul olub-olmayacağı söz konusu olmayıb. Hər halda, İsgəndər Həmidovun siyasətdən səhhətinə görə gedəcəyini düşünmürəm. Müalicəsini aldıqdan sonra bizlərlə olacaq. Amma hazırda istirahət və müalicə lazımdır. Rayonların birində təmiz hava, kənd şəraitində müalicəsini davam etdirəcək. Biopsiya olunduğunu öyrəndim".

**Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Müxalifətin hakimiyyətə gəlmək ümidi qalırmı?

## Düşərgədən iki fərqli baxış



Sərdar Cəlaloğlu



Əli Əliyev



Tural Abbaslı

**Azərbaycan müxalifəti bir zamanlar hakimiyyətə gələcək səviyyədə güclü idi. Seçkilərdə yüksək səs əldə etməkdən başlamış, meydanlara kifayət qədər kütə toplamağa qədər gücləri yetirdi. Bu isə onlarda hakimiyyətə gələcəklərinə ciddi inam yaradırdı. İstənilən müxalifət fəalını, liderini danışdıranda iqtidara gələcəklərinə inandıqlarını bəyan edirdilər.**

Son illərdə müxalifətin gücü xeyli zəifləyib. Bunu özləri də açıq şəkildə dilə gətirirlər. Bəs düşərgədə nə zamansa iqtidara gəlmək inamı, ümidi qalırmı?

ADP sədri Sərdar Cəlaloğlu bildirdi ki, müxalifətin vəzifələrini yalnız hakimiyyətə gəlməklə məhdudlaşdırmaq müxalifətin ən böyük və ciddi səhvlərindən biri olub: "Bunu da müxalifətdəki müəyyən revanşist qüvvələr edib. Adamlara elə gəlir ki, müxalifətin yeganə vəzifəsi hakimiyyətə gəlməkdir və müxalifət hakimiyyətə gələ bilmirsə, deməli, vəzifəsini yerinə yetirə bilmir. Halbuki belə deyil. İndi dünyada qloballaşma gedir. Bu qloballaşmaya görə, ayrıca dövlətdə yalnız iç qüvvələrin fəaliyyəti ilə nələrsə alınmır. Ona görə bizim hakimiyyətə gələ bilməməyimizin 90 faiz səbəbi bizdən asılı olmayan səbəblərdir. Yəni biz hakimiyyətə gəlmək üçün lazım olan kriteriyaların əksəriyyətinə cavab versək də, bizdən asılı olmayan kriteriyalar da var. Həmin kriteriyalar zəmin yaratmasa, biz heç vaxt hakimiyyətə gələ bilmərik".

VİP sədri Əli Əliyev isə hesab edir ki, müxalifətin iqtidara gəlmək ehtimalı anbaan yüksəlir: "Bunu sübut edən çoxlu sayda əlamətlər var. Birini söyləyim. Heç uzağa getməyək. Sizin iş otağınızla qonşuluqda "canlı debat" layihəsi həyata keçirilir. Həmkarınız dəyərli Sevinc Telman qızı bəndənizlə mükaliməyə iqtidardan nümayəndə tapa bilmir. İndi siz deyin, kimin mövqeləri daha güclüdür. Axı siz də seçici, həm də vətəndaşsınız".

AĞ Partiyanın sədri Tural Abbaslı isə dedi ki, müxalifət iqtidara gələcəyinə inanır və ümidlidir: "Doğrudur, uzun müddətdir ki, Azərbaycanda iqtidar bir siyasi qüvvənin əlindədir deyə istər xalqın, istərsə də bəzi müxaliflərin inamları və ümidləri nisbətən sarsılıb. Ancaq bu, o demək deyil ki, müxalifətin hamısının qalib gəlməyə inamları yoxdur. Zatən, məntiqlə analiz etsək də anlaşılar ki, uğura inam olmasa, bu qədər mübarizə aparılmaz, bu qədər məhrumiyyətlərə, həbslərə, təzyiqlərə tab gətirilməzdi. İqtidara gəlmək, hakimiyyətlə mübarizə aparmaq sistemli, ardıcıl və inadkar fəaliyyət tələb edir. Bu gün də kifayət qədər inamla və inadkar şəkildə hakimiyyətlə mübarizə aparan müxalifət təşkilatları mövcuddur. Şəxsən mən AĞ Partiya sədri olaraq özümüzü də bu qəbildən olan siyasi partiya hesab edirəm. Biz partiya üzvlərinin böyük əksəriyyəti gənc də olsa, artıq illərdir ki, hakimiyyətə gələrək xalqa xidmət etmək uğrunda ardıcıl və prinsipial mübarizə aparırıq. Biz inanırıq ki, çox yaxın zamanlarda müxalifətin və bizlərin təsir imkanlarımız artacaq və Azərbaycanın siyasi həyatına müsbət yön verən qurumlardan olacağıq. Həmçinin istər dünyada, istər regionumuzda və istərsə də Azərbaycanın daxilində vəziyyət belədir ki, hər an hər şey dəyişə bilər. 1 saatın içərisində müxalifət iqtidar ola bilər. Sadəcə olaraq, biz çalışmalıyıq ki, bütün proseslər Azərbaycan dövlətçiliyinin və xalqın maraqları çərçivəsində həyata keçsin".

**E.SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# "Müharibədən başqa əlacımız yoxdur"

## Tanınmış politoloq:

## "Azərbaycan ilk olaraq partizan müharibəsinə başlamalıdır..."



**Ötən həftə Ermənistanın baş naziri Nikol Paşinyan və xarici işlər naziri Zöhrab Mnatsakanyan növbəti dəfə Dağlıq Qarabağ məsələsində konstruktiv mövqedən uzaq olduqlarını ortaya qoydular. Paşinyan və Mnatsakanyan İrəvanın "bir qarış torpaq da verməyəcəyik" ritorikasını təkrarladılar. Artıq demək olar ki, həftədə ən azı bir dəfə erməni baş naziri bu cür mövqeni dilə gətirir.**

"Yeni Müsavat"ın "Yaranmış vəziyyətdə nə etməli" sualına cavabında politoloq Qabil Hüseynli bildirdi ki, Nikol Paşinyan faktiki olaraq Serj Sərkisyandan daha radikal mövqe nümayiş etdirir: "Erməni baş nazir və komandasının üzvləri Qarabağ məsələsində Serj Sərkisyan rejimini kölgədə qoymaqdadırlar. Onlar az qala hər gün "Qarabağ məsələsində bir qarış da olsun torpaq geri qaytarılmayacaq, bu məsələ ümumiyyətlə, müzakirə mövzusu ola bilməz" kimi bəyanatlar verirlər. Paşinyanın bu mövqeyi üzündən Qarabağ danışıqları faktiki olaraq pozulub və Azərbaycan üçün bir yol qalıb - hərbi əməliyyatlara başlamaq. Artıq əminliklə söyləmək mümkündür ki, Nikol Paşinyanla sülh danışıqları aparmağın mənası qalmayıb. Çünki o, Qarabağ məsələsində güzəştə getməyə hətta Serj Sərkisyandan da betər şəkildə, açıq-aşkar hazır deyil. Onun destruktiv bəyanatları, ayda bir neçə dəfə işğal olunmuş Azərbaycan ərazilərinə getməsi sülh razılaşmasından tamamilə uzaq mövqedə olduğunu açıq-aşkar ortaya qoyur. Paşinyan hərbi əməliyyatların başlanması üçün əlindən gələn hər şeyi edib və Bakıya mesaj verir ki, torpaqları heç bir şərtlə qaytarmağa hazırlaşmır. Belə birisi ilə Qarabağ danışıqlar bərpa olunsa belə, real nəticəsi olası deyil. Ona görə də Ermənistanla danışıqlar aparmağın mənası yoxdur".

Politoloqun sözlərinə görə, Nikol Paşinyan nümunəsi bir daha göstərdi ki, Ermənistanda istər Qarabağ müharibəsinin iştirakçısı olsun, istər müharibədə heç vaxt iştirak etməyən siyasətçi olsun sülhə, güzəştə hazır olan siyasətçi yoxdur: "Hansısa erməninin Azərbaycanın zərbələrini hiss etmədən güzəştə gedəcəyi heç vaxt mümkün deyil. Ermənistana rəhbərlik edən istənilən erməninin Azərbaycan yalnız güc tətbiq etməklə sülh razılaşmasına məcbur edə bilər. Başqa yol yoxdur. Ermənistanda təkcə siyasilər yox, hətta orta və aşağı səviyyəli insanlar da millətçilik xəstəliyinə tutulub və onlarla danışıq aparmağın mənası qalmır. Ermənistanda hakimiyyətdə kim olur-olsun, Azərbaycana qarşı siyasət dəyişməyəcək, işğal olunmuş ərazilərin geri verilməsindən söhbət belə getməyəcək. Hansı tərəfdən baxsaq, müharibədən başqa yol qalmadığı görünür. Ermənilər görməlidirlər ki, onların qarşısında duran dövlət işğaldakı torpaqların itirilməsi ilə barışmayacaq. Bu yolda müxtəlif taktiki variantlara əl atmaq lazımdır. Uzun müddətdir ki, bir neçə şəxsin dilindən partizan müharibəsi kəlməsi səsləndirilib. Ruslar özü ikinci dünya müharibəsində, elə birinci dünya müharibəsinin özündə xalqlar öz suverenleyini və ərazi bütövlüyünü qorumaq üçün partizan müharibəsindən istifadə ediblər və buna görə də kimsə kimsəni günahlandırmayıb. Buna uyğun olaraq dövlət təxribat qrupları da təşkil edib və onun partizan döyüşçülərin gözünə qatıb. Əlbəttə ki, bu məsələlər idarə edilir. Azərbaycan ilk olaraq partizan müharibəsinə başlamalıdır. Bu müharibənin hazırlanıb həyata keçirilməsinin taktiki variantları üzərində fikirləşməyə dəyər. Bizim öz ərazilərimizdə partizan müharibəsi aparmaq üçün hər cür haqqımız var. Başlanacaq müharibə də Qarabağın taleyini həll edəcək. Ermənistana keskin cavab verməyin vaxtı gəlib çatıb. Bizim müharibədən başqa əlacımız yoxdur. Təpədən dırnağa qədər müharibəyə köklənməliyik".

**Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 123 (7293) 10 iyun 2019

# Balaca Zəhranın oğurlanmasının cəmiyyətə və valideynlərə verdiyi əsas dərs

## Mütəxəssislər həyəcan təbili çalır; "Uşaqlarını qaraçılara verib faizlə diləndirilməsi halları artıb"; "Zəhra ilə bağlı hadisə faciə ilə də nəticələnə bilərdi..."

**Artıq bir neçə gündür ki, Sabunçu rayonunda yaşayan azyaşlı Zəhranın oğurlanması hadisəsi cəmiyyətimizdə ciddi müzakirə edilməkdədir. Əksəriyyət bu məsələdə valideynləri qınayır, azyaşlı uşağı nəzarətsiz qoymaqda suçlayır, digərləri isə qaraçı toplumlarına nəzarətin daha da gücləndirilməsinə çağırışlar edir.**

Xatırladaq ki, 4 iyun tarixində Zəhranın valideynləri onu 11 yaşlı bacısının himayəsində qoyaraq işə gediblər. Evdə nəzarətsiz qalmış uşaq çölə çıxaraq, yaxınlıqdakı mağazaya gedib və daha sonra itkin düşmüşdü. Lakin polis əməkdaşlarının intensiv axtarışları nəticəsində azyaşlı uşaq 2 gün sonra tapılaraq, valideynlərinə təhvil verilib. Qeyd edək ki, Zəhra Nizami rayon ərazisində diləndirilərkən tapılıb.



Maraqlıdır, bəs cəmiyyətimiz və valideynlər bu hadisədən necə dərs alıb?

"Azərbaycan Uşaqlar Birliyi"nin sədri Kəmalə Ağazadə ilk öncə hadisə ilə bağlı öz təəssüratlarını bildirdi:

"Hələ də mənə dəqiq aydın deyil ki, uşaq oğurlanıb, ya itkin düşüb? Bəzi məlumatlarda deyildi ki, onu oğurlayan qadın qaraçıdır, digər məlumatlarda isə əslən Masallıdan olduğu bildirildi. Axı Masallıda qaraçı qrupları yoxdur. Digər məlumatlarda isə qadının ruhi xəstə olduğu deyildi. Yəni bu hadisədə qaranlıq məqamlar var. Bildiyim qədər, Sabunçu rayonu ərazisində yetərli sayda qaraçı yaşayır. Bu baxımdan həmin ərazidə yaşayan valideynlər uşaqlarına daha ciddi nəzarət etməlidir. Həmçinin bu hadisədən belə aydın olur ki, valideyn uşağını 11 yaşlı uşağın himayəsində qoyub, işə gedib. Bu nə dərəcədə doğrudur? Həmçinin bu hadisə onu göstərdi ki, bu cür ərazilərdə uşaq bağçalarının sayı kifayət etmir. Əgər bağça olsaydı, ana övladını bağçanın himayəsinə verərdi və uşaq nəzarətdə olardı. Nə qədər ki, bu problem həll olunmayıb, bu cür hadisələrlə rastlaşacağıq".

Qurum sədri qeyd etdi ki, baş verən hadisə cəmiyyət üçün bir həyəcan siqnalı olmalıdır: "10-15 il ərzində bu cür adam oğurluğu hadisəsi ilə qarşılaşmamışdıq və bu hadisənin baş verməsi bir həyəcan siqnalı olmalıdır. Çünki bu hadisə digər cinayətlərin başlanğıcı ola bilər, uşaqların oğurlanması üçün xüsusi yollara əl atıla bilər".

Kəmalə Ağazadə qaraçı qruplarının nəzarətə alınması üçün çağırış da etdi: "Tez-tez rastlaşırıq ki, uşaqları qaraçılara faizlə diləndirməyə verirlər. Hansı ki, həmin uşaqlar nənə, bibi, xala himayəsində olur. Necə olur ki, uşaqları himayə edənlər bölgələrdə oturur, uşaqlar isə paytaxtda dilənir? Məsələn, hazırda bizim sığınacaqda 2 yaşlı Lalə var. Onun anası ruhi xəstədir, buna baxmayaraq 5 uşaq doğub, atası tüfeyli həyat sürür. Uşaqların heç biri valideynlərinin yanında deyil. Laləni isə bibisi qaraçıya faizlə diləndirməyə verib. Təsadüf nəticəsində həmin qaraçı hallı vəziyyətində uşağı küçənin ortasında buraxıb gedib və uşaq küçə itlərinin hücumuna məruz qalıb. Yalnız ətrafdakı insanların köməyi sayəsində uşaq itlərin əlindən alınaraq, bizim sığınacağa gətirilib. Beləliklə, uşaqların faizlə qaraçılara verilməsi olayı ilə tez-tez rastlaşırıq. Buna görə də onlarla bağlı xüsusi göstərişlər verilməli, coğrafiyaları, yayıldığı ərazilər, etnik tərkibləri araşdırılmalıdır. Doğrudur, ölkə daxilində onların rahat yaşamaqları barədə məhdudiyyətlər yoxdur, lakin nəzarət edilməlidir.

Zəhra ilə bağlı hadisəyə gəldikdə isə, bu olayda da mənim üçün bəzi şübhələr qalıb. Çünki mətbuatdan da izləyirik ki, qadının uşağa və uşağın qadına münasibəti pis olmayıb, sanki əvvəldən bir-birilərini tanış olublar. Yəni qaranlıq məqamlar çoxdur"

Bu məqamda qeyd edək ki, "Yeni Müsavat"ın əməkdaşları qaraçıların diləndirdiyi 4 yaşlı Zəhranın evindən reportaj hazırlayarkən, qonşular ərazidəki qaraçıların ciddi nəzarətə alınması ilə bağlı müraciət etmişdilər: "Bizdə irqi ayrı-seçkilik yoxdur, heç bir zaman da buna yol verməmişik. Amma hüquq-mühafizə orqanlarından xahiş edirəm ki, burada çoxlu sayda qaraçılar məskunlaşıb, onların barəsində tədbir görsünlər. Oğurluq kiçik şeylərdən başlayır, sonda adam oğurluğuna qədər gəlib çatır, hansı ki, son hadisəni yaşadıq".

Psixoloq Azad İsazadə isə mövzu ilə bağlı qeyd etdi ki, hər zaman cəmiyyətdə bu cür hadisələr baş verib və verəcək də: "Təəssüflə qeyd edirəm ki, bu hadisə bizim cəmiyyətimizə dərs olmayacaq. Doğrudur, bəzi ailələr bu hadisədən təsirlənərək, qorxu, stress yaşayacaq və övladlarını ümumiyyətlə gözdən qoymayacaqlar. Təbii ki, bunun da öz mənfi təsiri var. Digər insanlar isə, sadəcə, daha diqqətli olacaqlar".

Psixoloq qeyd etdi ki, 3-5 yaşında uşaqların nəzarətsiz buraxılması çox təhlükəli ola bilər: "Çünki uşaqlar 3-5 yaşlarında artıq dünyanı anlamağa başlayır, valideyndən ayrılaraq, sərbəst hərəkətlər etməyə, çoxlu suallar verməyə, ətrafındakı hər şeylə maraqlanmağa can atır, gəzmək istəyir və sairə. Əgər evdə 2-3 dəqiqəlik onu nəzarətsiz buraxsaq, hətta küçəyə çıxa bilər. Buna görə də uşağı o yaşlarda 1 dəqiqəlik da olsun gözdən qoymaq olmaz. Həmçinin evin içində nəzarəti əldən buraxmaq olmaz. Çünki uşaq üçün qaz, elektrik, bıçaq və digər təhlükəli şeylər çox maraqlı olur. Zəhra ilə bağlı hadisə çox sevindirici haldır ki, yaxşı bitdi. Amma bu hadisə faciə ilə də nəticələnə bilərdi".

Xatırladaq ki, azyaşlı Zəhranı oğurlayaraq dilənçiliyə cəlb etmiş, 39 yaşlı Masallı rayon sakini T.Nəzərova saxlanılıb. Faktla bağlı Cinayət Məcəlləsinin 144-cü (adam oğurluğu) maddəsi ilə cinayət işi başlanılıb.

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

# Abdulbari Gozalın "dövlət ticarətlə məşğul olmasın" fikrinə iqtisadçı şərhi

## Ekspert: "Dövlətin müdaxiləsi yalnız bəzi məhsulların qiymətlərinin tənzimlənməsi ilə bağlıdır"

**"Azərsun Holding"in prezidenti Abdulbari Gozal ötən həftə Bakıda keçirilən tədbirlərin birində bir sıra təkliflər irəli sürüb. Məsələn, o, "Biz dövlətin ticarətlə məşğul olmamasını və sahibkarların yolunu açmasını istəyirik" deyib.**



Onun sözlərinə görə, dövlət heç vaxt iqtisadiyyatda uğurlu ola bilməz: "Bu gün bizim üçün ən vacibi ölkəyə xarici sərmayənin gəlməsidir. Bunun üçün də qanunların düzgün işləməsi lazımdır. Şükür Allaha, prezident bu məsələni nəzarətə götürüb. Biz ona inanırıq. Əgər ölkə başçısı bir şeyi diqqətdə saxladısa, ən yaxşısını görəcək. Əgər qanunlar düzgün işləyərsə, sahibkarlar üçün yaxşı olar".

Holdinq rəhbəri Azərbaycanda məhkəmə sisteminin də inkişaf etdirilməsinin vacib olduğunu deyib. Və öz təcrübəsindən misal gətirib: "Bir dəfə Almaniyada dostumla danışırdım. Ona dedim ki, biri gəlib məni aldadıb. Vəkilə vəkalət verdim. Mən qayıdıb gəldim. Pulumu alıb yolladı, həmin adamı da 6 il həbsə saldı. Mənim ona inamım, simpatiyam artdı. Bu baxımdan, qanunlarımızın daha da ədalətli olmasını arzulayıram".

Onu da qeyd edək ki, zaman-zaman müxtəlif iqtisadçı ekspertlər ölkədə dövlət qurumlarını sahibkarlara maneə yaratmamağa çağırırlar. Məsələ ölkə prezidentinin də diqqətindədir. Ölkə prezidenti hökumətin müşavirələrində dəfələrlə sahibkarlara dəstək verilməsi, onların qarşısında olan maneələrin aradan qaldırılması ilə bağlı tapşırıqlar verib. Bu xüsusda son illərdə xeyli işlər də görülüb. Son real hadisələrdən qeyd edə bilərik ki, "Diqlas" ticarət mərkəzində baş verən güclü yanğın sonrası, ölkə başçısının sərəncamı ilə zərərçəkmiş sahibkarlara prezidentin ehtiyat fondundan ilkin olaraq üç milyon manat yardım ayrıldı. Sahibkarlar öz mallarını sığorta etməsələr də, ölkə prezidenti onlara dəyən zərəri müəyyən qədər qarşılamaq üçün bu cür addım atdı. Eyni zamanda ötən ilin iyun ayında sahibkarlara dəstək məqsədilə prezident İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOB) fəaliyyətinin təmin edilməsi haqqında fərman imzalayaraq qurumun nizamnaməsi və strukturunu təsdiqlədi. Agentliyin əsas məqsədi kiçik və orta sahibkarların dostuna çevrilməsi və eyni zamanda, sahibkarlığın hüquqi təminatının gücləndirilməsi, regionlarda sahibkarlığın inkişafına əlverişli şərait yaradılması əsasında dayanıqlı inkişafın təmin edilməsidir. Həmçinin ölkədə İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən də sahibkarlara xeyli dəstək verilib.

Statistik məlumatlara görə, son 15 ildə ölkəmizdə fəaliyyət göstərən sahibkarların sayı 4,2 dəfə artıb. İndiyədək 35 mindən çox sahibkara 2,2 milyard manatadək güzəştli kreditlər verilib.

Ancaq təbii ki, problemlər də qalmaqdadır. İqtisadçılar xüsusilə də sahibkarları vergi orqanlarının sıxması, incitməsi məsələsini qabardırlar. Ekspertlər bildirirlər ki, sahibkarlara kreditlər aşağı faizlə verilib, vergidə güzəşt olunarsa, ölkənin iqtisadiyyatının neftdən asılılığı minimuma endirilər. Bu isə neftin qiymətlərinin dünya bazarında aşağı düşməsi fonunda, manatın sabitliyini qorumaqda, iqtisadiyyatı üzləşə biləcəyimiz təhlükələrdən sığortalamaqda dövlətə şərait yaratmış olar.

Abdulbari Gozalın fikirlərini "Yeni Müsavat"a şərh edən iqtisadçı alim Fikrət Yusifov bildirdi ki, əslində hazırda ölkədə dövlətin ticarətə müdaxiləsi yoxdur:

"İlk növbədə açıqlamaq lazımdır ki, dövlətin ticarətlə məşğul olması, ticarətə müdaxiləsi dedikdə nə nəzərdə tutulur. Hər bir sahibkar məhsulu rahat formada sata bilir. Ya özü istehsal edir. Ya da gətirdiyi məhsulu bazara çıxarıb, ticarətlə məşğul olur. Dövlətin müdaxiləsi yalnız bəzi məhsulların qiymətlərinin tənzimlənməsi ilə bağlıdır. Bu da faktiki olaraq rəqabət mühiti, anti-inhisar siyasəti ilə əlaqədardır. Rusiya kimi ölkədə də qiymətlərin tənzimlənməsi məsələsi mövcuddur. Ancaq bu, təbii ki, ərzaq məsələlərinə aid deyil. Söhbət monopolist istehsalçılarla bağlı olan məsələlərdən gedir. Şirkətin rəhbəri müdaxilə ilə bağlı fikrini açıqlamalıdır ki, tam formada şərh verməK mümkün olsun. Əgər hansısa qurumun əməkdaşı qanunsuz, vergidən kənar olaraq sahibkardan nə isə tələb edirsə bu, cinayətdir. Bunun üçün də müvafiq olaraq hüquqi addımlar atılmalıdır. Təbii ki, məhkəmə sahəsində aparılan islahatlar bu xüsusda sahibkarlara yardım edəcək. Hazırda yeni iqtisadi məhkəmələr yaradılır. Həmin məhkəmələrdə təsərrüfat subyektləri arasında mübahisəli məsələlərə baxılacaq. Yəni doğrudan da islahatlar davam edir".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# "Narkotik aludəçisi ailəsi üçün təhlükəlidir və təcrid edilməlidir"

## Sabiq polis rəisi narkotik cinayətlərinin və dağılan ailələrin sayının artmasının səbəblərindən danışdı

**Ötən həftə Bakı Ağır Cinayətlər Məhkəməsində "Buta Palace"ın art-direktoru, həyat yoldaşını balkondan yerə ataraq xüsusi amansızlıqla öldürməkdə ittiham olunan Ramiz Taxvelinin cinayət işi üzrə məhkəmə prosesi başlayıb. Məhkəmə prosesində qan donduran faktlar ortaya çıxdı.**

İttiham aktında qeyd edilənlərə görə Ramiz Taxvelinin avtomaşınına baxış zamanı 1 ədəd kibrit qutusunda təmiz çəkisi 5.647 qram bitki mənşəli kütlə tərkibində narkotik maddələr olan çətənə (kannabis) bitkisindən kustar üsulla hazırlanmış, qurudulmuş marixuana götürülüb. Tibbi müayinə zamanı onda THC marixuana və BAR (barbiturat) qəbulu nəticəsində yaranmış psixi davranış pozuntusu aşkar olunub.

Son illər narkotik qəbul edib öz ailə üzvlərinə xəsarət yetirilməsi, hətta öldürməsi ilə bağlı xəbərlər yayılıb. Bəs narkotik qəbul edən şəxsə, ailəsi ilə birlikdə yaşamağa icazə verilməlidirmi? Bu kimi faciələri önləmək üçün hansı hüquqi addımlar atıla bilər?

"Yeni Müsavat"a danışan sabiq polis rəisi Mahmud Hacıyev bildirib ki, hazırda ölkədə narkomaniyaya qarşı mübarizə gedir, ancaq sovet dönəmindən fərqli məqamlar da var: "Nəzərə almaq lazımdır ki, narkotiki satanı, alanı və ondan istifadə edən var. İstintaq zamanı, cəza təyin olunan zaman bu cür məqamlara diqqət edilir. Yəni məsələyə şablon formada yanaşıb, hamıya eyni qiyməti vermirlər. Ağırlaşdırıcı hal kimi, hər zaman narkotiki satanı nəzərdə tutulur. Yəni satan, özü qəbul etməklə yanaşı, bunu həm də yayır və cəzası ağırlaşır. Bir də var, hadisəni törədən şəxs kimi, narkotikin aludəçisi. Bu məqamda yenə də, təbii ki, narkotiklə mübarizə məsələsi gündəmdə olur. İstintaqın gedişində yalnız aludəçidirsə, cəzası bir qədər yüngül olur. Adam da var ki, sadəcə olaraq, narkotiki daşıyır. Birindən alıb, digərinə ötürür. Bu da istintaqda başqa bəndin subyektidir. Hüquqi baxımından narkotikə qarşı mübarizə aparan zaman hər üç kateqoriyaya qarşı mübarizə aparılır. Eyni zamanda, istintaqda miqdar da nəzərə alınır. Bu, sovet dönəmində də belə idi. Xüsusilə də ot halında olan narkotiklərin qəbulunda müəyyən olunan miqdar var. Həmin miqdar aşılmırsa, şəxsi azadlıqdan məhrum etmirlər. Çünki burada cinayət tərkibi olmur. Bütün bunları ona görə sadalayıram ki, hər biri narkotikə və narkomanlara qarşı mübarizənin növüdür. Sovet dövrü ilə müqayisədə hazırda MDB məkanında narkotikdən istifadə halları daha da çoxalıb. Ailə övladının narkoman, narkotik aludəçisi olduğunu görürsə, onu dərhal müalicəyə məcbur etməlidir. Təbii ki, bu cür şəxslər ailələri üçün təhlükəlidir".


Mahmud Hacıyev

Ekspert bildirib ki, SSRİ zamanı hazırkı MDB məkanlarında ona görə narkotik az idi ki, sərhədlər yüksək səviyyədə qorunurdu: "Xaricə çıxış və ölkəyə gəliş həddindən artıq çətin idi. Həmin zaman yalnız ot halında olan narkotikdən söhbət gedirdi. Hansı ki, hazırda bir çox sivil Avropa ölkələrində həmin narkotiklərin istifadəsi məhdudlaşdırılmayıb. Orada ot halında olan narkotikdən istifadə, inzibati xəta kimi tənzimlənir. SSRİ dağılandan sonra bütün müttəfiq respublikaların xaricə çıxışı asanlaşdı və narkotik də kütləviləşməyə başladı. Hazırkı dönəmdə bu məkanda istər narkotikin satanı, çəkəni, istərsə də daşıyıcısı xeyli dərəcədə artıb. Ona qarşı mübarizə müəyyən struktur islahatları başladı. SSRİ dönəmində narkotikə qarşı yalnız polisin tərkibində olan əməliyyat xidməti mübarizə aparırdı. MDB məkanında bəzi respublikalar, struktur islahatları ilə bunu, polisin tərkibindən çıxararaq, ayrıca əməliyyat xidməti kimi yaratdılar. Misal kimi Rusiya, Gürcüstanı göstərə bilərik. O cümlədən Baltik ölkələrində də bu cürdür. Ancaq bununla bərabər ortaya süni heroinlər də çıxdı. Laboratoriya üsulu ilə hazırlanan bu maddələr, insanların beyinlərini tez bir zamanda iflic edir. Nəticədə onlar özlərini idarəetməz hala gəlirlər. SSRİ zamanında yalnız çox nadir hallarda tiryəkin adını eşitmək olardı. Demək olmaz ki, narkomanlara qarşı mübarizəni dayandırıblar. Sadəcə olaraq, mübarizə deyil, burada insanın özü böyük rol oynayır. Məsələ psixologiyadadır. İnsan var ki, iradəlidir və yüksək səviyyədə intellektə malikdir. Adam da var ki, xaraktercə zəifdir, dünyagörüşü isə kasaddır. Həmin şəxslər narkotikə asanlıqla meyllənir. Nəticədə ayılır ki, bu, artıq xroniki narkomandır. Sonra da ailədə, kənarda cinayət törədir. Ona görə də ilk növbədə insanın özü düşünməlidir ki, bu gün qəbul etdiyi narkotik, sabah onu hara aparır. İlk növbədə özü, özü ilə mübarizə aparmalıdır. Daha sonra isə ailəsi diqqətli olmalıdır".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

---

**26 ildir ki, hər ilin iyununda bu ölkənin ictimai-siyasi gündəmində bir mövzunun müzakirəsi başqalarını üstələyir.**

**Xalid KAZIMLI**



# Revanşistlərin zəfər, mərhəmətlilərin kədər ayı - iyun

Bu, 4 iyun qiyamı ilə bağlı mövzudur və iyunun günləri bir-birini əvəz etdikcə, mövzu yana, böyürə qol-budaq atır, şaxələnir.

"AXC-Musavat hakimiyyəti nədən devrildi?"; "Bir il əvvəl prezident seçilmiş Elçibəy qiyamçıları əzə bilərdimi?"; "Heydər Əliyevin Bakıya dəvət edilməsi doğruydumu?"; "İsa Qəmbər və Pənah Hüseynin istefası zəruriydimi"; "İyunun 17-dən 18-nə keçən gecə Elçibəyin Bakını tərk etməməsi mümkün idimi?"; "İyunun 24-də legitim prezidentin öz səlahiyyətlərindən məhrum edilməsi qanuniydimi?"; "İyunun 30-da əliqanlı qiyamçı polkovnik Surət Hüseynovun baş nazir təyin edilməsi vəziyyətdən yeganə çıxış yoluydumu" və sair və ilaxır mövzular eninə-uzununa müzakirə edilir.

Hər il bu serial yenidən başlayır, davam edir eyni sonluqla da bitir. Dəyişən yalnız odur ki, ildən-ilə bu mövzularda daha sakit, obyektivliyə yaxın rəy bildirənlər artır. Eyni zamanda mövzulara, həmin tarixi hadisələrə bugünkü arşınlarla yanaşanlar da çoxalır.

Bu üzdəndir ki, "4 iyun qiyamı" mövzusu ətrafında yazılan yazılar artıq "Kennedini kim öldürdü" və ya "SSRİ hansı səbəbdən dağıldı" mövzularında yazılanlardan çoxdur.

Bircə şeyi bilmək lazımdır ki, atalar demişkən, artıq olmuşla ölmüşə çarə yoxdur. Yenə üstündən bir-iki il keçmiş vaxtlarda, məsələn, 1995-ci ildə 4 iyun qiyamının nəticələri aradan qaldırılmış olsaydı, bu müzakirələrin nəsə bir əhəmiyyəti olardı. İndi yalnız həmin hadisələrin tarixdə dürüst şəkildə əks olunması qayğısını çəkmək olar. Tarix də elə şeydir ki, onsuz da hər şeyi əvvəl-axır gerçək məğzində saxlayır.

Bu il 4 iyun qiyamının baş verməsinə və yatırılmamasına görə Elçibəy hakimiyyətini qınayanların, pisləyənlərin sırası geniş oldu, səsləri də möhkəm çıxdı. Bunların bir çoxu ölkənin demokratikləşməsindən yana illərdir çalışan-çabalayan və müxtəlif dönəmlərdə dəfələrlə məyus olan, ona görə də bugünkü durumun başlanğıc səbəblərini gətirib 4 iyun qiyamına, daha dəqiqi, o zamankı hakimiyyətin təslimçilik mövqeyi tutmasına bağlayanlardır.

Onlar xeyli dərəcədə haqlıdırlar, amma tam yox.

Birincisi, bu kimi qiyamlar, yaxud məxməri hakimiyyət dəyişikliyi bizimlə eyni durumda olan postsovet ölkələrində də baş verdi. O ölkələrdə də revanşist qüvvələr, əski kommunistlər, xüsusilə də gənc komsomolçular bir-iki ilin içində toparlanaraq hərəkətləndilər və hakimiyyəti götürdülər.

Bizdə də eyni proses getmişdi. 1992-ci ilin oktyabr-noyabr ayından başlayaraq ölkədə partiyalaşma prosesi kütləvi hal almışdı. Cəmi iki-üç ayın içində Etibar Məmmədovun rəhbərlik etdiyi AMİP-in üzvləri artıq AXC və Müsavatın bir yerdə üzvlərindən daha çox, daha iddialı, daha aqresiv idilər. Hər hansı bir seçki olacağı təqdirdə hakimiyyətə AMİP gələcəkdi.

Bu adamlar kimlər idi? AXC və Müsavata qoşulmayan, buna görə də vəzifə bölgüsündən kənarda qalan keçmiş hərəkatçılar, uzun zaman gözləmə mövqeyində durub xalq hərəkatına qoşulmayan, artıq siyasətlə məşğul olmağın zərərli olmadığını görən karyeristlər, orta və kiçik ranqlı vəzifələr tutan və cəbhəçilərlə əvəzlənəcəklərini gözləyən kommunistlər, komsomolçular, suyu bulanıq görən və "balıq tutmaq" fikrinə düşən kəmfürsətlər və sair və ilaxır. Onlar hər rayonda 5-6 cəbhəçinin dövlət vəzifələrinə təyin edilməsini görür və "biz daha layiqik" düşüncəsinə qapılırdılar.

Bu arada hər rayonda vəzifəyə təyin olunan 5-6 cəbhəçi məsələni bitmiş sayır, "vəzifələrə layiq olan elə bizlərik, digər cəbhədaşlarımız hələ yetişməyiblər" düşüncəsi ilə onları hakimiyyətə gətirən sıravi hərəkatçıları xor görürdülər. Bu üzdən AXC-nin rayon təşkilatlarında ciddi münaqişələr vardı və "Sahil" bağı (AXC-nin qərargahı Üzeyir Hacıbəyov küçəsində yerləşirdi) hər gün rayonlardan şikayətə gələn cəbhəçilərlə dolub-daşırdı.

Bəli, durum beləydi. Ötənilki ən güclü təşkilat bölünmüş, intriqalı, çəkişməli durumdaydı, onun rəqibi isə 4-5 ayın içində hakimiyyətə təkbaşına gələcək qədər güclənmişdi. Əliyalın "meydan davası"na qalsaydı da, cəbhəçilər, müsavatçılar döyüləcəkdi. Çünki komanda ruhu itmişdi.

Belə bir durumda Surət Hüseynovun qaldırdığı qiyam ona görə qarşısıalınmaz oldu ki, dövrün ən güclü təşkilatı AMİP, eləcə də digər siyasi təşkilatlar qiyama həm siyasi, həm də əməli dəstək verdilər. Bir çox rayonlarda AMİP-çilər qiyamçılarla birlikdə legitim hakimiyyəti devirərək öz nümayəndələrini başçı təyin etmişdilər. Onlar öz zamanlarının yetişdiyini zənn edirdilər. (İyunun sonlarında H.Əliyev televiziya ilə çıxış edərək Etibar Məmmədovun ondan dörd vəzifə istəməsini bəyan etməsinin sabahı günü AMİP iki yerə parçalandı, partiyanın böyük hissəsi öz tanınmış ziyalıları ilə birlikdə yeni iqtidarın tərəfinə keçdi).

Bundan başqa, bu proses cəmi ilyarım əvvəl qurulmuş, müharibə aparan dövlətdə, hakimiyyətinin bir ili tamam olmamış iqtidar komandasında qarşı gedirdi. Kimin kimə tabe olması bilinməyən, iyerarxik subordinasiyaya riayət edilməyən, hər döyüşən batalyonun özünü müstəqil hərbi qüvvə elan etdiyi dönəmdə durumu nəzarət altına almaq çətin idi. Sınıq-salxaq dövlət maşını sürücünün iradəsinə tabe olmurdu.

Bir və iki il sonra necə oldu? Yenə qiyam cəhdləri baş verdi - 1994-cü ilin oktyabrında Surət Hüseynov Heydər Əliyevi də devirmək istədi, 6 ay sonra Rövşən Cavadov da qiyam qaldırdı. Hər iki halda durumu nəzarət altına almaq çətin oldu. Hər iki qiyam cəhdi zamanı dövrün ana müxalifət qüvvəsi AXC-Müsavat tandemi qiyamçılara heç bir dəstək vermədi, oyunlara qoşulmadı. Etiraf edilməsə də, bu, həlledici faktorlardan biriydi. Düzdür, birinci halda cəbhəçi və müsavatçıların onların hakimiyyətini devirmiş Surətə kömək etmələri ehtimalı sıfırın altındaydı, amma 1995-ci ildə onlar döyüşçü polkovnikə - Rövşən Cavadova dəstək verə bilər, rayonlarda kütləvi hərəkata başlaya bilərdilər. Etmədilər.

Elçibəy iqtidarı revanşist qüvvələrin qarşısını hələ ilin əvvəlində ala, onları yerində oturda, darmadağın edə bilərdi, amma bu, yalnız açıq və kütləvi hüquqpozma nəticəsində, repressiv tədbirlərlə baş tuta bilərdi. İnsanları hakimiyyətə gəlmək istədiklərinə, növbəti iqtidar komandası formalaşdırdıqlarına görə repressiya etmək Elçibəy iqtidarının prinsiplərinə, elan etdiyi "milli təsanüd" nəzəriyyəsinə zidd idi. Bununla belə, açıq-aşkar qiyama, üsyana çağıran bəzi adamlar cəzalandırıla bilərdi. Onlar hakimiyyətə növbəti seçkini gözləmədən gəlməyə dair çağırışlar edir, antikonstitusion addımlar atırdılar. Aralarında deputatlar və universitet müəllimləri də vardı. Onları istintaqa cəlb etmək mümkün idi. AXC-Müsavat hakimiyyəti bunu etmədi.

Uzun sözün kəsəsi, 4 iyun-30 iyun məğlubiyyəti ona görə baş verdi ki, bu qovğada zəfər yox idi. 4 iyun qiyamı baş verəndən sonra artıq hər şey 5-6 gedişi əvvəli hesablayan qrossmeysterin oyunu kimi oldu: məcburi gedişlər və xoşagəlməz endşpil.

Tarixi təcrübə göstərir ki, inqilabi hərəkətlənmə ilə hakimiyyətə gələn qüvvə ilk illərdə siyasi rəqiblərinə qarşı amansız olmalıdır. Olsa, hakimiyyəti uzun olur, olmasa, revanşistlər toparlanır və qisas alırlar.

Elçibəy amansız olmadı, mərhəmətli oldu və ondan, komandasından qisas aldılar. Məsələnin mahiyyəti, məğzi budur.

Yeri gəlmişkən, bu sətirlərin müəllifi hələ 1993-cü ilin mayında "Siyasi matç-revanş: gediş qırımızlarındır" başlıqlı yazı yazmış, orada revanistlərin Elçibəy hakimiyyətini devirməyə hazırlaşdığını qeyd etmişdi. Tarixin ironiyasına baxın, həmin yazı "Yeni Müsavat"ın 4 iyun (1993-cü il) sayında, 4-cü səhifədə dərc olunub - məhz qırmızıların siyasi revanşa başladıqları gün...



# Hamımız məşqə gecikirik

**Sevinc TELMANQIZI**

**Bizim camaatımız rəy bildirməyi sevmir... Sevir, amma öz arasında, dedi-qodu, qeybət formasında, pıçıltı ilə. Çayxana, Topaz köşələrində, domino, nərd masalarında. Peşmandı bir jurnalist sorğu keçirmək üçün mikrofon uzatsın. Əfi ilan görmüş kimi uzaqlaşacaq, qaçacaq, üz-gözünü elə turşudacaq ki, sanki dünyanın ən pis sözünü eşidib. “Yeni Müsavat”ın əməkdaşları tez-tez aktual mövzularla bağlı əhali arasında sorğu keçirirlər. Əslində ona sorğu keçirməkdən çox zülm çəkmək desək, daha doğru olar. Çünki dostlarımız danışırlar ki, nəticə 100-ün 10-a nisbətində olur. Yəni, onlar sıradan bir sual üçün 100 nəfərə müraciət edirlərsə, cəmi 10 nəfərdən cavab gəlir.**

Bunun qorxanı var, sualı eşitmədən kameranı əli ilə itələyəni var, jurnalisti acılayanı var... Biri kompleksdən, digəri qorxudan, bir başqası məlumatsızlıqdan. Sonuncular daha çox gənc kateqoriyanı əhatə edir. Baxırsan ki, görüntü, geyim-gecim yerində, özü də universitet tələbəsi. Qarnına da bir dəftər dürtüşdürüb - bu, müasir tələbələrin vazkeçilməz atributudur. Amma elementar bir mövzu barədə anlayışı, fikri yoxdur. Bunu da kamuflyaj etmək üçün “məşqə gecikdiyini” deyir. Yəqin o məşhur sorğu elementini xatırlayırsız: məşqə gecikirəm e, məşqə. Həmkarlarım bir çox hallarda Elmlər Akademiyası metrosu həndəvərində sorğu keçirirlər. O yerdə ki, bir neçə universitet tələbəsi, elm adamları, alimlər, ziyalıların daha çox olduğu məkandır. Yəni, beyin mərkəzlərinin kəsişmə nöqtəsi. Düşünən, danışan, çıxış yolları göstərən insanların ortaq məkanı. Amma nəticə... sıfıra sıfır, əldə sıfır.

Özüm bir neçə fərqli ölkədə səfərdə olanda sorğu keçirmişəm. Ən çox yadımda qalanlar Vaşinqtonda Ağ Evin qarşısında və İstanbulun Taksimində reallaşdırdıqlarım idi. Kimə yaxınlaşırdım, elə bil dünyaya natiq olaraq gəlmişdi mübarəklər. Xüsusən də türkiyəli gənclər. Taksimdəki terror olayından sonra gerçəkləşdirdiyimiz sorğuya elə cavablar verirdilər ki, politoloqlar, siyasətçilər bu zəka qarşısında təzim etsə, yeri vardı. Ağ Evin on addımlığında baş tutan sorğuda isə amerikanlar Trampı ağ yuyub qara sərmişdilər. Heyrətlər içində idim. Azadlıqlar ölkəsinin vətəndaşlarının bu rahatlığı, komplekssizliyi, gözüqıraqlıqdan uzaq tövrləri... Çəksən, film olardı.

İndi düşünəcəksiz ki, siyasi xof, qorxu, dediyi sözə görə cəzalandırılmaq qorxusu... Deyirəm, adam sualın nə olduğunu bilmədən kameranı itələyir. Bəlkə sual “xoşbəxtliyə inanırsız”dır? Ya da sevdiyiniz müğənni kimdir deyə maraqlanır bu qərib jurnalist. Sualı dinləmədən, mikrafonu itələmək, jurnalitə “öff” deyib getmək, mədəni cəsarətsizliyin bir nümunəsi deyilmi? Bəli, mədəniyyət təkcə son dəb geyimlərlə ən müasir restoranda şam etmək deyil ki. Mədəniyyət həm də sənə yönəldilən mikrafona danışmaq istəməsən də, bunu incə şəkildə bildirə bilməkdir.

Halbuki indi baxıram canım məmləkətimizin sosial şəbəkədəki fikir babalarına. Bir neçə gündür CHP-li Əkrəm İmamoğlunun verdiyi açıqlamadakı təhrif detalı üzərində baş sındırırlar. İmamoğlunun açıqlamasını kontekstdən çıxaran bəzi həmkarlar onu “Erməni olduğumu heç vaxt gizlətmərəm” şəklində təqdim edib. Təhrifdir təhrif olmasına, həm də buynuzlusundan. Amma bu, bizim ölkəmizdə müzakirəyə səbəb olacaq yüz mövzudan bəlkə də 99-cusudur, inanın. Çünki ölkə siyasətindən, idarəetməsindən, lənət şeytana, lap müxalifətindən cümlə yaza bilməyən şanlı medianın öz gözünün acısını İmamoğlunun açıqlamasından çıxması o qədər təbiidir ki. Şabanın məşhur filmində deyilən kimi, “budamı yasaq, qurban?” Yəni, nə yazsın, nə desin? Heç nə yazmayacaqsa, belə müzakirə yarada bilməyəcəksə, o zaman niyə media adına iddia etsin ki?

Təxminən sorğudan yayınmaq üçün “məşqə gecikən” qaqaşın günündəyik hamınız. Vacib mövzularda danışmağa qorxuruq, vacib olmayanlar barədə baş sındırır, kiçik stəkanda böyük fırtına qoparırıq. Corc Oruelin “1984" əsərinin qəhrəmanlarına bənzəyirik get-gedə. Sanki bizi kimlərsə izləyir, daim təqib altında, daim nəzarətdəyik. Qorxunun yaratdığı süni təbəssümlərlə yola veririk həyatı. Əgər buna həyat demək olarsa...

**Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəblinin “Yeni Müsavat”a verdiyi müsahibənin 2-ci, sonuncu hissəsini təqdim edirik.**

# “Gedək, “17 villamı” göstərim”

## Hadi Rəcəbli: “Mən 15 yaşından işləyib böyük oğul kimi ailəni saxlayanda bunlar harda idilər?”

(Əvvəli ötən sayımızda)

***- Hadi müəllim, normalda uşaqpulunun miqdarı nə qədər olmalıdır?***

- Mən bu gün o rəqəmi deyə bilmərəm. Gərək istehlak səbəti öyrənilə. Yaşayış minimumunda uşağın yaşayış minimumu rəqəmi var.

***- Bu gün sizin məsələ ilə bağlı təklifləriniz konkret nədən ibarətdir?***

- Təklif etmişik ki, yaşayış minimumuna yenidən baxılsın. İndi 180 manatdır. Təklif edirik ki, ən aşağısı 260 manata çatdırılsın. Mən bu barədə parlamentdə də danışmışam. Ancaq görün bu fikirlərimi səsləndirən var? Çıxış edib demişəm ki, çətindir, belə yaşamaq olmaz. Amma bunlar götürüb əksinə yazıblar. Mənim parlamentin iclasında minimum əməkhaqqı barədə səsləndirdiyim rəqəm bundan çox idi. Orta əməkhaqqının ən azı 60 faizini demişdim. İndi orta əməkhaqqının məbləği 540 manatdır.

***- Hadi müəllim, Azərbaycanda olduğu kimi, ABŞ-da da konqresmen və senatorlara qarşı qərəzli və qəzəbli münasibəti sezdinizmi?***

- Birincisi, Amerika qanunvericiliyində konqresmenin şəxsiyyətinə toxunan adamı ən sərt qanunlarla cəzalandırırlar. Toxunulmazdır o adam. Səfərimiz zamanı konqresmeni müşayiət edənləri, köməkçilərini də gördük. Nəqliyyat vasitəsi də var, otaq da ayrılıb. Konqresmen də lazım olan yerdə sözünü deyir.

***- Bəs, konqresmenlərin villası necə, varmı?***

- Villaları da var, özü də çoxlu. Əgər villa bizim adamları çox qıcıqlandırırsa, konqresmenlərin daha nələri, nələri də var. Onlar da heç nəyi olmayan şəxsi deputat seçmirlər. Amma camaat fikir vermir ki, deputat seçiləndə biz hər birimiz bəyannamə təqdim etmişik, gəlirlərimizi, mülkiyyətimizi göstərmişik. Adımıza olan mülkiyyət də, gəlirlərimiz də orda var. Ancaq kim ona baxır? Kim nə istəyir, onu danışır və yazır.

***- Yeri gəlmişkən, sosial şəbəkələrdə yazırlar ki, Hadi Rəcəblinin “17 villası” var...***

- (Gülərək) Buyur, buna sən də gülürsən, mən də. Çünki bilirik ki, belə şey yoxdur. Təkcə məndən söhbət getmir. Deputatlara qarşı.. Axı anonim demokratiya olar? Adını yazma, söyüş söy... Onsuz da o təhqirlər təhqir edən adama qayıdır. Ancaq bu, məgər demokratiyadırmı? Məgər bu, işlərə kömək edərmi? Özü də yalan, nahaq! ABŞ konqresmeninə heç kəsin ixtiyarı yoxdur ki, əsassız nəsə desin, onu təhqir etsin, ona artıq söz desin, çünki toxunulmaz adamdır. Bizim seçicilərimiz də özlərini öldürür ki, bu, nə allahsızlıq, nə ədalətsizlikdir? Deyirlər sən niyə bizim deputatımızı təhqir edirsən? Mən çox təəssüf edirəm, parlamentdəki çox ləyaqətli deputatlarımız haqqında ağzınagələni yazırlar. Bizim deputatların böyük əksəriyyəti zəhmətdən gələn, həyatın altını-üstünü görən adamlardır, ağılları üstündə olan insanlardır. Bəziləri xoşa gəlmək üçün populizmlə məşğul olur, onlar populizmdən uzaq, real adamlardır, reallıqla danışırlar. Onda gərək hamısı durub desin ki, gəlin maaşı filan qədər artıraq, amma bunun həddi, dərəcəsi olmalıdır. Bu qədər proses getdi, 3 milyon adama 2 milyard əlavə vəsait verildi, ancaq cəmiyyətdə buna “sağ ol” deyən oldumu? Üstündən keçdilər.

Bu gün biz qiymətləndirməyi bacarmalıyıq. Burda deputatların da xidməti var, onların çıxışları, fikirləri olub. Xoşa gəlmək üçün fikirləri təhrif edib yayırlar, deputatları təhqir edirlər. İstənilən deputatın fikirlərinin təhrif edilməsinin, kontekstdən çıxarılıb yayılmasının əleyhinəyəm. Təklif edirəm ki, deputatla maraqlansınlar, sonra danışsınlar. Elşad, mən səni dəvət edirəm, gedək, bizim evə bax! Gedək, mənim “17 villamı” sənə göstərim. Səmimi deyirəm, gedək, bax, gör Hadi müəllimin nəyi var. Xahiş edirəm, bunları yaz, çəkinmə!

Bir daha ona qayıdıram ki, Amerika konqresmenləri azərbaycanlı deputatlardan heç də ağılda, savadda, mənəviyyatda üstün deyillər.

***- Amma nədənsə yaz sessiyasının son iclasında səfər təəssüratlarınızı bölüşmədiniz həmkarlarınızla...***

- İclasda danışmadım, amma sədrimizə və beynəlxalq şöbəyə məlumat verdim. Həmçinin Kaliforniyadakı konsulumuza da minnətdarlıq məktubu yazdım ki, çox yüksək səviyyədə təşkil olunmuşdu. Təsəvvür edin ki, 28 Mayda Monterey şəhərinin küçələri Azərbaycan bayrağı ilə bəzədilmişdi...

***- Hadi müəllim, ABŞ-da səfərdə olsanız da, mayın 31-də keçirilən iclasa özünüzü çatdırdınız. Yeri gəlmişkən, “biznes-klas”da uçdunuz, yoxsa “ekonom klas”da?***

- “Ekonom klas”da uçdum və camaatın içində oldum. Bakıdan İstanbula uçanda biri əyildi qulağıma dedi ki, Hadi müəllim, siz nə əcəb camaatın içində gedirsiniz. (Gülür) Dedim hərdən belə uçuram. “Ekonom klas”la uçmağın da xoş təəssüratları var. 31 may gecə saat 3-də Bakıya qayıtdım. Amma sessiyanın son iclasında 2018-ci ilin dövlət büdcəsinin icrası müzakirə olunacaqdı, istədim ki, mən də öz fikirlərimi diqqətə çatdırım.

***- Bəzi fikirlərinizdən belə qənaətə gəlmək olarmı ki, siz də bəzi həmkarlarınız kimi, cəmiyyətdən narazısınız...***

- Xeyr, mən cəmiyyətdən narazı deyiləm. Cəmiyyətin ünsürlərindən narazıyam. Gedək Lənkərana, görək cəmiyyət özünü necə aparır.

***- Tahir Kərimli demişdi ki, nə qədər “can” deyiriksə, xalq “zəhər” deyir...***

- Xalq mənə “zəhər” demir, ola bilsin, bəzi ünsürlər desin. Bir misal deyim. Ramazan ayında mən, yoldaşım, oğlanlarım, qızlarım, kürəkənlərim, gəlinlərim oruc tutduq. Bir yerdə getdik iftar açmağa. Çıxanda taksi saxlatdırdım. Özüm də ev paltarındaydım. Taksi bir az irəli keçdi, sonra saxladı, geri qayıtdı. Oturduq. Yolda başa düşdüm ki, sifarişə gedirmiş, tanıyıb, sifarişi ləğv edib. Düşəndə dedi, Hadb müəllim, çox sağ olun! Bax, cəmiyyət budur. Kütlə psixologiyasına uyan, yalanlarla yaşayan, işləməyib gəlir əldə etmək istəyənlərin iddiaları cəmiyyətin fikri deyil. Hadb Rəcəbli 15 yaşında işləyib böyük oğul kimi ailəni saxlayanda bunlar harda idilər? İndi deyirlər Hadb Rəcəblinin maaşı çoxdur.

***- Yeri gəlmişkən, maaşınız indi nə qədərdir?***

- 4 min manatdan bir az çox.

***- 7-8 min deyilirdi.***

- Çox şişirdirlər. Orda bəzi cüzi müavinətlər, ödənişlər də var...

***- Milli Məclisin yaz sessiyasının son iclasında Ermənistan və Gürcüstanla paralellik aparıldı. Minimum əməkhaqqı, orta aylıq maaş niyə iqtisadi imkanları qat-qat zəif olan qonşularda daha yüksəkdir?***

- Əvvəla, bir sıra rəqəmlərə görə biz digər ölkələri üstələyirik. Cənab prezident son çıxışlarında da minimum əməkhaqqı ilə pensiyaların artırılması ilə bağlı fikirlər səsləndirdi. Prezidentimiz də bunun artırılmasını istəyir. Digər tərəfdən, Ermənistan əhalisinin yarısı ölkədə yoxdur. Vəsait real əhali arasında bölünür. Və beləliklə rəqəm şişir. İkincisi, ermənilər sədəqə pulu ilə dolanırlar, ordan-burdan pul göndərirlər, hökumət əhaliyə paylayır. Hələ onların payladığı vəsait də bazarla, qiymətlərlə uyğunluq təşkil etmir. Odur ki, belə müqayisələrin əleyhinəyəm.

**❑ Elşad PAŞASOY**
**FOTO: “YM”**



# "Surət Hüseynovla üz-üzə gəlsəm, heç nə deməRəm"

## Tahir Kərimli: "İndi bu barədə müzakirə açmaq odu söndürüb, külü ilə oynamaqdır"

**Üstündən 26 il keçməsinə baxmayaraq, Gəncə hadisələri bu günlərdə yenidən geniş müzakirə mövzusuna çevrildi. Xüsusilə də sabiq baş nazir Pənah Hüseynin Dövlət Müdafiə Komitəsinin 26 may 1993-cü il tarixində keçirilən məxfi iclasının protokolunu yayması həmin olayların yenidən sərf-nəzər edilməsinə stimul verdi. Bu mövzuda Ali Məhkəmənin sabiq sədri, deputat, Vəhdət Partiyasının sədri Tahir Kərimli ilginc fikirlər söylədi. Əvvəlcə yayılan məxfi sənədlərdən bəhs etdi:**

- Əvvəla, onu deyim ki, o zaman bizdə dövlət yeni qurulduğuna görə, hələ dövlət intizamı tam yerində deyildi. Oturuşmuş dövlətlərdə dövlət sirri olur, həmişəlik, 30 illik, 10 illik. Son məlumatlar Pənah bəyin öz təşəbbüsü ilə açılıb. Bilmirəm bunu 1993-94-də, yaxud 5 il əvvəl niyə açmaq olmazdı, məhz indi açıb, yaxud nə qədər dürüstdür? Hər halda Pənah bəy göstərmək istəyir ki, bu məsələlər müzakirə olunub. Həmçinin, Azərbaycan prezidentinin burada Surət Hüseynov faktorunun aradan qaldırılması, hətta fiziki məhvi ilə bağlı iradəsi olub. Amma bu, eyni zamanda suallar doğurur: əgər bu, Təhlükəsizlik Şurasında müzakirə olunubsa, bəs nə üçün yerinə yetirilməyib? Yerinə yetirilmədiyinə görə məsuliyyət necə olmalıdır? Həmişə deyilir ki, bunu yaxşı icra etməyiblər. İcra olunmamasını aşağı orqanların üzərinə qoymağı düzgün saymıram. Lap gəncliyimdən həzrəti Əlinin bir kəlamı yadımda qalıb ki, öz işçisini pisləyən rəhbər yaxşı rəhbər deyil. İndi də partiyada mənim narazı qaldığım o qədər üzvlər var ki...

Amma heç vaxt məsuliyyəti onların üzərinə qoymuram. Yaxud partiyamdan nə qədər gedənlər olub, heç vaxt onları təqsirləndirmirəm. Deyir, mərd özündən görər, namərd özgədən. Odur ki, iyun hadisələrinin məsuliyyətini kiminsə boynuna atmaq lazım deyil. Fakt ondan ibarətdir ki, hər zaman, indinin özündə də Azərbaycanın dövlət müstəqilliyini istəməyən qüvvələr olub. Təbii ki, SSRİ-dən ayrılanda Rusiya amili çox ciddi amil idi. Burada digər dövlətlərin də marağı var idi, Elçibəy hakimiyyətindən İran və ya Orta Asiya ölkələri də razı deyildi, təkcə Rusiyadan söhbət getmirdi. Bu amillər bizdə dəyişikliyi hər zaman arzulayıblar. Bunun üçün də içəridən qüvvələr tapılmalı idi. Ancaq içəridəki qüvvələri neytrallaşdırmaq hökumətin borcuydu. Bunu isə edə bilməyiblər. Mən o zaman da çıxışımda dedim ki, əgər bu əməliyyatı planlaşdırıb həyata keçirmisinizsə, çox pis həyata keçirmisiniz. Bir-iki ildən sonra yenə hansısa sənəd ortaya çıxa bilər, yeni müzakirələr aparıla bilər. İndi bu barədə müzakirə açmaq odu söndürüb külü ilə oynamaqdır.

***- Belə demək olarmı ki, siz hələ də 1993-cü il hadisələrinin sirrini aça bilməmisiniz?***

- Bilirsiniz necədir? Bu, düzgün iş deyil axı. Deyirlər İsa bəy, Pənah bəy gedib Daxili İşlər Nazirliyinə, Heydər Əliyevə zəng ediblər. Mən bilmirəm onlar dəvət ediblər, yoxsa başqa mövzuda danışıblar. Amma Heydər Əliyev böyük dövlət adamı idi. Dövlətin birinci şəxsinin dəvəti olmadan necə gələ bilərdi? Gəlməzdi axı. Bu, inandırıcı deyil. Yaxud birinci şəxsin iradəsi yox idisə, təyyarəni Heydər Əliyev üçün kim göndərmişdi? Yeni məsuliyyəti öz üzərindən atmaq heç də yaxşı deyil. Hesab edirəm ki, məsuliyyət hamımızın üzərində var. Bu yaxınlarda Hikmət Hacızadənin bir fikri çox xoşuma gəldi. Açıq şəkildə deyib ki, Rusiya amilini nəzərə almaqla Nazarbayev siyasəti yürütmək lazım idi, çünki Rusiya böyük dövlətdir, biz kiçik. O zaman mən də bu fikri qəbul etməzdim. Amma indi düşünəndə düz deyib. Bəli, biz yaxşı siyasətçiydik, amma böyük siyasətçi deyildik. AXC hakimiyyətindən sonrakı hakimiyyət artıq böyük siyasətçinin əlində oldu. Yaxşı siyasətçi heç də böyük siyasətçi olmaq demək deyil. Hikmət Hacızadə də açıq şəkildə deyir ki, Heydər Əliyev böyük siyasətçi olaraq bacardı, Rusiya kimi böyük ölkə ilə münasibət qurub müəyyən işləri reallaşdırdı. Bizdə bu, çatmırdı, bəzi dövlətləri özümüzdən incidirdik. Biz niyə Özbəkistan, İran, yaxud Rusiya ilə münasibətləri pozan fikirlər səsləndirməliydik? Yaxud Rusiyanın, başqa dövlətin agenturası var idisə, vaxtında onları məsuliyyətə cəlb etməliydik. İndi daha iş-işdən keçib...

***- Sizə o hadisələrlə bağlı ən çox təsir edən nədir?***

- Deyək ki, Heydər Əliyev hakimiyyətə dəvət olunmuşdu, Surət Hüseynovu neytrallaşdırmaqdan ötrü, ya başqa səbəblərdən. Hər halda, dost kimi dəvət olunub. Bəs, nə üçün işçilərinizə dediniz ki, bu, dost kimi dəvət olunan adama münasibətdə vəzifənizi dondurun, yaxud düşmən münasibəti bəsləyin, Heydər Əliyevə müxalifət olun? Bununla da cəmiyyət YAP-çılara və cəbhəçilərə bölündü, süni müxalifətçilik bu gün də davam edir. Ona görə də müxalifət heç vaxt qalib gələ bilməyib və gələ də bilməzdi. 2005-ci ildə bu məsələ bitdi. Çünki bunun mayası düzgün qoyulmayıb. Deyək ki, Tahir Kərimli Heydər Əliyevlə işləməyə razı olmayacaqdı, bəlkə qardaşı razılaşacaqdı. Nə var-nə var, bunları xəyanətdə suçlamasınlar deyə, belə etdilər. Guya ki, bunlar istəmədən Heydər Əliyev gəlib, hakimiyyətə yiyələnib. Bunlar yalandır axı. Onda bu iqtidar tamamilə doğru deyir ki, Heydər Əliyevi hakimiyyətə xalq dəvət edib. Sən dəvət eməyibsənsə, onda xalq dəvət edib də. Yox, dəvət etmişdinsə, bir yerdə, əl-ələ verib işləmək lazım idi. Yüz minlərlə insan sıradan çıxdı. Ona görə də obyektiv yanaşmaq lazımdır. Düzdür, üstündən 26 il keçib. Amma dağdan uzaqlaşdıqca daha yaxşı görünür. İndi biz iyun qiyamının mahiyyətini, daxili və xarici qüvvələrin nisbətini bilirik.

***- Tahir bəy, heç bu haqda düşünmüsünüzmü ki, kaş, Heydər Əliyev 3-4 ay tez dəvət olunardı, Kəlbəcər işğal olunmazdan, vəziyyət daha da kritikləşməzdən əvvəl?***

- Etiraf edim ki, o zaman prosesləri görə bilmirdim, ancaq mənim də fikrim bu idi. Açıq danışaq, o vaxt burda Rusiyanın Şerbak və digər qüvvələri var idi, tam korrupsiyalaşmışdı. Pulunu ver, iş gör. Onlara lazım idi ki, biz MDB-yə girək, Rusiyaya düşmən olmayaq. Onlar Xankəndində bayrağımızı dalğalandırmağa, hakimiyyətimizi bərqərar etməyə hazır idilər. Hətta biz bu şansı Ayaz Mütəllibova bir il əvvəl verməliydik. Yeni hakimiyyətə gəlmək istəyimizdən çox, ona şans verməliydik. O, bizdən vaxt istəyirdi ki, qoy Qarabağa bayrağımızı sancaq, sonra nə edirsiniz-edin. Biz dedik yox, o, Rusiyanın köməyi ilə uğur qazanacaq, onda isə hakimiyyətə gələ bilməyəcəyik, AXC hakimiyyətə çatmayacaq. Yaxşı, bu, keçdi, bir ildən sonra da həmin hadisələr baş verdi. Tamamilə doğru deyirsiniz, Dövlət Şurası ideyası var idi, şəxsən mən onun tərəfdarıydım. Heydər Əliyev, Ayaz Mütəllibov, Vəzirovla birlikdə bütün dövlət adamları - necə ki, Ukraynada dəfələrlə bu modeldən istifadə ediblər - Dövlət Şurasına daxil olardı, vahid idarəçilik olardı. Ya dəvət edirdiksə, bir az əvvəldən dəvət edəydik, düşmənin təxribatına uymazdıq, BMT səviyyəsində Qarabağla bağlı qəbul olunan qərarların icrasını tələb edən model yaradardıq, dövlət idarəçiliyində Məsləhət Şurası, ya Dövlət Şurası qurardıq, birgə hərəkət edərdik. O qədər gözəl məsələyə toxundunuz ki. Bəli, Heydər Əliyev vaxtında dəvət olunmalıydı, 8 saatlıq görüşdən sonra. Amma oyun oynanıldı. Üzdə guya ki, istəmirlər, amma mahiyyətcə buna gedildi. Gərək bizə qarşı qiyam, 4 iyun hadisəsi baş verəydi, onda məcburən buna gediləydi? Ondan sonra nə qədər ərazilərimizi itirdik...Amma bir haşiyə çıxım. Bizim hakimiyyətdə əvvəl Heydər Əliyevin dəvət olunması ilə bağlı fikir var idi. Amma bundan imtina olundu. Qamsaxurdiyanın ölümündən sonra Şevardnadzenin hakimiyyətə gəlməsinin nə qədər vacib məsələ olduğu dərk edildi. Azərbaycan hakimiyyəti də Qamsaxurdiya aqibətini yaşamaqdan qorxdu və məcbur oldu. Amma siz deyən kimi, nə qədər gecikdirildi və iş-işdən keçdi.

***- O vaxt bu mövqedəydinizsə, nəyə görə deyirdiniz özümü güllələyərəm, intihar edərəm?***

- Mən o zaman deyirdim ki, nəyə görə hakimiyyəti təhvil verməliyəm, Surət kimdir, onun öhdəsindən gələ bilməyəm, nəyə görə mənim qurduğum hökumət sıradan çıxmalıdır? Axı, bu, təkcə mənim hökumətim deyildi. Şəhid qanı hesabına, fədakar yoldaşlarımızın, xalqımızın hesabına bu hökuməti qurmaq üçün nə qədər əzablar çəkmişdik. Bu, babalarımızın on illərlə ürəyində gəzdirdiyi arzu idi. Yadımdadır, hətta İsmayıllı rayon təşkilatında Vahid Azərbaycan ideyasını qoymuşduq, Akademiya qəbul etmirdi. Biz onu Cəbhənin təməl prinsiplərinə daxil etdik. Üç prinsip idi: müstəqillik, demokratiya, Vahid Azərbaycan. AXC-nin üç təməl prinsipi var idi, biz müstəqilliyə çatmışdıq, ikisinə çata bilməmişdik. Hədəflərə çatmamış AXC aradan çıxdı, sonra partiyaya çevrildi, hələ bu, bir yana. Niyə biz bu əməliyyatı düzgün keçirə bilmədik, səriştəsizlik etdik, nə üçün qiyam baş verməliydi, niyə qarşısını ala bilmədik, niyə hakimiyyətimiz əldən getməliydi? Mən əlbəttə, bununla barışa bilməyəcəyəm, niyə yalan danışım? Mən neçə il hakim işləmiş adam idim və gəlib Ali Məhkəməyə rəhbərlik edirdim. Mənim işimdə nə nöqsan var idi, bəlkə rüşvət alırdım, işi bilmirdim? Məhkəmə icra katibliyindən böyüyə-böyüyə gəlmişdim, bütün o işi bilirdim. Bəzən deyirdilər Tahir işi bilmir, ona görə rüşvət almır. Axı, mən dövlətim üçün nə lazımsa, etməyə hazır idim, eləcə də minlərlə digər insanlar. Hərə bir prezident idi, tankın qabağında duran oğullar pulun qabağında dayana bilmədilər...Ay qardaş, mən deyim. İsmayıllıda Rasim idi, rəhmətə gedib, onu deməm. Ucara getdik, Beydulla bəy icra başçısı idi, and olsun Allaha, oturmaq üçün evində on stul yox idi. Yaxud Ağsunun icra başçısı Ramiz bəy. Təmiz işləyirdi bu insanlar. İddia edirlər ki, işçilər yaxşı işləmirdi. Bunlar hamısı bəhanədir. Bəsdir, sıravi cəbhəçilərin, müsavatçıların üstünə böhtan atdılar! Onların çoxu fədakar idi, meydan mübarizəsindən, döyüşlərdən çıxmışdı.

***- Deməli, hələ də Cəbhə liderlərini, keçmiş komandadaşlarınızı bağışlaya bilmirsiniz, eləmi?***

- Açığı, bəziləri dünyasını dəyişdiyi üçün deyə bilmirəm. Amma heç vaxt bağışlaya bilmirəm. İşi görürlər, sonra ortaya belə fikir atırlar ki, aşağılar belə etdi...

***- Bəs, bu illər ərzində Surət Hüseynovla rastlaşmısınız?***

- Yox, rastlaşmamışam. Amma o vaxt onun adamları mənim də yanıma gəldilər. Qiyam olandan sonra mənim maşınımı aldılar, polislər də Ali Məhkəməyə girmişdilər. Ancaq onda mən heç ölüm haqqında fikirləşmirdim ki. Ağsuda evimə hücum etdilər. Hətta istefa verəndən sonra qohum-əqrəbam da gizlənirdi. Dedim daha mənimlə işləri olmaz. Amma yenə də hücum etdilər.



**"Bəlkə ləl-cəvahirat toplamışıq, imarətlər tikdirmişik?!"**

***- Üz-üzə gəlsəydiniz, Surət Hüseynova nə deyərsiniz?***

- İndi üz-üzə gəlsəm, Surət Hüseynova heç nə deməRəm. "Qara polkovnik" mavr gəldi, öz işini gördü, getdi. O, aparıcı bir adam deyildi, bir fiqur idi. Onunla söhbət etmək, neytrallaşdırmaq lazım idi. Surət Hüseynov on dəfə güclü olsaydı belə, onun qarşısını almaq olardı. Gəncədə, Yevlaxda, Ağsu dağlarında, Şirvanda almaq olardı. Ay qan tökülərdi, ya nə olardı. Qan yüz dəfə çox töküldü. Bəhanələr lazım deyil. Neçə il əzablar çəkəndən sonra təzə dövlət qurmuşduq. Hamı fikirləşirdi ki, təzə milli dövlət düz işləyər, rüşvətsiz işləyər, milli ideyalarla silahlanar. Amma o insanlar gördülər ki, rüşvətxorluq, əyrilik yeri gələndə sovet dövründəkindən də çox olur. İnsanların dövlətə inamı itdi. Nə qədər mənəvi siyasi deqradasiyalar, pərakəndəlik oldu. Mən o zaman da çıxış etdim ki, biz 20-25 il ərzində bütün dünya, o cümlədən İslam aləmi üçün nümunəvi bir dövlət qura bilərik, pak, rüşvətsiz, mənəvi əyriliklərin belə olmadığı bir dövlət. Amma bu şans əldən çıxdı. Ona görə də mən bu gün Surət Hüseynovu günahkar saymıram. Bunun mənası da yoxdur. Nöqsanı mən özümdə axtarmalıyam. Hakimiyyəti əlimizdə saxlaya bilməmişik, oyunlar oynamışıq. İndi də müxalifətçilik oyunu oynayırlar. Hamısı gedib 5-10 il parlamentə oturub, legitimlik veriblər. İndi Tahir, o, bu, 2-3 nəfər oturmaqla legitimlik vermir e. Aparıcı partiyalar, Cəbhə, Müsavat orda oturmaqla legitimlik verdi. Hamısı əlbir oldu hakimiyyətlə, indi bunlar olublar düzgün müxalifət...Bəlkə ləl-cəvahirat toplamışıq, imarətlər tikdirmişik?! Gücümüz çatan qədər millətimizə, dövlətimizə xidmət edirik. Kimsə deyir mən on illər boyu ailə, uşaq bilməmişəm, indi heç olmasa uşaqlarım əmək haqqı alsın, bu, olub böyük bir xəyanət. Bunların vaxtilə etdikləri, hakimiyyətdə oturması xəyanət olmur, indi biz xəyanətkar olmuşuq...

❑ **Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 123 (7293) 10 iyun 2019



# İnzibati məhkəmə

Zamin HACI
zaminhaci@gmail.com

"Sevgi Nazirliyi həqiqətən də insanın canına qorxu salırdı. Binada yerli-dibli pəncərə yox idi".
*(Corc Oruell, "1984")*

**Deputatlardan birinin intervüsünü təsadüfən oxumaq şərəfinə nail olmuşdum, müxbir sual verir ki, sədri olduğunuz partiyanın neçə üzvü var, adam yalan danışmaq istəmir, ancaq düzünü də deməyə utanır, o üzdən belə diplomatik formada aradan çıxır: "Üzvlərin sayını rayon təşkilatlarımız bilir". Əlbəttə. Hər rayon təşkilatı ayrıca partiyadır əslində. O dərəcədə böyük qüvvədir. Ancaq müxbir lap ağını çıxardır, bir dənə də axmaq sual qoyur: "Niyə aktiv deyilsiniz?". Hörmətli deputatın cavabı şedevr sayıla bilər: "Partiyamizin gündəlik fəaliyyəti niyə nəzərə çarpmalıdır ki?". Vallah da. Müharibə şəraitində yaşayırıq, bəlkə bunlar partiya olaraq yığışıb Ağdam tərəfdən yeraltı tunel qazırlar, qəfil Şuşanın ortasından çıxıb erməniləri qıracaqlar? Belə sirləri açmaq yaramaz. Üstəlik, Ermənistanın boşaldığı bir məqamda.**

Bu intervü başqa bir əski deputatın parlament üzvlərinin sayını artırmaq təklifini oxuyanda yadıma düşdü. Deyir 125 nəfər azdır, azı 250 deputat olsa Azərbaycanın dərdlərinə daha yaxından çarə etmək mümkündür. İndiki halda ağırlıq çox düşür. İnsafən, hardasa həqiqət vardır. 125 nəfər xalqa tema vermək üçün azdır. Tutalım bunun biri soğan əkməyin, ikincisi uşaq əkməyin vacibliyindən danışdı, üçüncüsü müəllimləri bənna işləməyə çağırdı, dördüncüsü himni kəsməyi, beşincisi bayrağı uzatmağı, altıncısı dombalaq aşmağı təklif elədi və sairə. İldə 365 gün var axı. Mən təklifi dəstəkləyərək deputat sayının nəinki 250, lap 365 olmasını istəyirəm. Hərəyə bir mövzu düşər, millətin başı qarışar, böyük, ümummilli razılıq olar. Necə deyərlər, ümid var gələcəyə, səs versək Elçibəyə.

Bir də qardaşımız deyir bu parlament 2 palatalı olsun. Biri aşağı palata olsun, biri yuxarı palata. Yaxşı fikirlərdir. Hətta dörd palatalı parlament də qayırmaq olar: alt, üst, orta və ağır vəziyyətdə olanlar üçün. Bizim buna hər cür imkanımız var, neft-qaz yatağımızın ucu-bucağı bilinmir.

Ümumiyyətlə, islahatlar hər sahədə aparılmalıdır, aparılır, aparılacaqdır. Buna şübhəniz olmasın. Keçən həftə məhkəmə sahəsində böyük islahata yol verildi. 7 məhkəmənin adı dəyişdirildi. Qabaq "iqtisadi-inzibati məhkəmə" adı daşıyırdılar, indən sonra "inzibati məhkəmə" olacaqdır. Gör nə qədər dərin, məzmunlu, insanların həyatını dəyişdirən, gələcəyə üfüqlərimizi açan bir islahatdır. (Yeri gəlmişkən, bu yaxında hökumətin qərarı ilə yay girəcəkdir, dedim indidən biləsiniz, özünüzə Xəzərin sahilində dənizə baxmaq üçün hasar deşiyini qabaqcadan kirayə edəsiniz). Məhkəmənin adı "inzibati-iqtisadi" olarkən hakimlər çaşırdılar. Bilmirdilər işə iqtisadi tərəfdən yanaşsınlar, yoxsa inzibati tərəfdən. Hətta elə proses olmuşdu hakim iqtisadi baxımdan hökm kəsmişdi, evə gedəndə yadına düşmüşdü ki, səhv eləyib, özünü asmışdı. Şükür olsun, daha belə hüquqi nihilizmə yol verilməyəcəkdir, axı bizim Qarabağ dərdimiz vardır!

Ancaq düşünürəm islahat burada əyləci basmamalıdır. Daha qabağa getməliyik. Mən təklif edərdim "İnzibati məhkəmə"nin adını dəyişib "Qiyamət məhkəməsi" qoyaq. Mənəvi dəyərlərimizə də uyğun olar. Üstəlik, bunun fililoji-sintaktik-orfoepik-linqvistik-yuridik-irodik-periodik analizi "inzibat" sözündəki "bat" hissəsini mənfi çalarlı olduğunu, dövrümüzün yüksəliş təmayüllərinə uyğun gəlmədiyini göstərməkdədir. Biz niyə batırıq ki? Bizi istəməyənlər batsın, özü də, inşallah, Göyçə gölündə. "Qiyamət" sözü isə həm "qamət", həm "ət" sözlərini özündə gizlədir, bu isə hüquqi islahatlarımızın totuq-motuqluğuna işarədir. (Bir az da təhlil edərdim, ancaq görürəm yaxşı istiqamətə getmirəm).




# Azərbaycana qarşı yeni hiyləgər plan - İrəvanın 2 məkrli hədəfi

## Ermənistan son 11 ildə ilk dəfə Gürcüstanın xeyrinə, Rusiyanın əleyhinə mövqe sərgilədi - səbəb; düşmənin "Qərbə satılmağa hazırıq!" mesajını zəruri edən amillər; Tiflisin və Kremlin cavabı nə olacaq?..

**Ötən həftə Ermənistan-Gürcüstan münasibətləri üçün, eləcə də Azərbaycan üçün əhəmiyyətli sayılacaq bir olay baş verdi. Söhbət BMT Baş Məclisində Gürcüstanın Rusiya tərəfindən işğal edilmiş Abxaziya və Cənubi Osetiya bölgələrindən olan məcburi köçkünlərlə bağlı qəbul edilən qətnamədən gedir. Sənəddə qonşu ölkənin ərazi bütövlüyü növbəti dəfə dəstəklənib. Rusiya və bir neçə digər ölkə, əsasən Moskvanın müttəfiqləri - Kuba, Belarus, Nikaragua, Şimali Koreya və başqaları (15 ölkə) onun əleyhinə səs verib.**

Qeyd edək ki, Gürcüstan belə sənəd layihələrini 2008-ci ildən müzakirəyə çıxarır. Hər il də bu mötəbər qurum böyük səs çoxluğu ilə məcburi köçkünlərin öz doğma yurdlarına qayıtmaq hüququnu və Gürcüstanın ərazi bütövlüyünü təsdiqləyən qətnamə qəbul edir. Ancaq maraqlıdır ki, bu il ilk dəfə olaraq, Ermənistan ənənəni pozaraq, Rusiyanın yanında yer almayıb, Rusiya kimi sənədin əleyhinə səs verməyib, sadəcə, səsverməyə qatılmayıb. Bununla da dolayısıyla Gürcüstanın ərazi bütövlüyünü dəstəklədiyini göstərib. Sözsüz ki, bu da bilavasitə Ermənistandakı yeni hakimiyyətin, konkret olaraq, baş nazir Nikol Paşinyanın iradəsi ilə bağlıdır.

*****

Rəsmi İrəvan belə mövqe dəyişikliyinin səbəbini hələ ki izah eləməyib. Ancaq gürcü-erməni əlaqələri üzrə erməni ekspert Coni Melikyana görə, "görünür iki qonşu ölkə qeyri-formal şəkildə anlaşıb ki, daha bir-birinin əleyhinə səs verməsinlər". "Yeni Müsavat"ın məlumatına görə, bu barədə o, Eurasiyanet.org-a açıqlamasında olayı şərh edırkən deyib.

"Ancaq Ermənistan həmin qətnaməyə səs də verə bilməzdi, çünki İrəvanın Dağlıq Qarabağ problemi var və sənədin dəstəklənməsi Ermənistanın maraqlarına zidd olardı. Hərçənd əvvəllər Gürcüstan bir sıra antierməni qətnamələrinə, məsələn, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən sənədlərə səs verib. İrəvan bununla münasibətlərin yaxşılaşması yönündə ilk addım atmaq istəyib. Bitərəf qalmaqla biz (Ermənistan - "YM") daha möhkəm əlaqələr qurmaq istədiyimizi göstərmişik. Bununla biz həmçinin Azərbaycanın Gürcüstanda Ermənistan əleyhinə təbliğatını pozmuşuq. Nədən ki, bu məsələ onların Ermənistana ünvanlı tənqidlərində əsas istiqamətlərdən biri idi".

Belə çıxır, rəsmi İrəvan bununla ümid edir ki, Gürcüstan da bundan sonra Dağlıq Qarabağla bağlı BMT-də analoji qətnamələr zamanı "antierməni" mövqeyi tutmayacaq və Azərbaycanın ərazi bütövlüyünün təsdiqləndiyi sənədlərin səsverməsi zamanı Ermənistan kimi ən azından, bitərəf qalacaq. Hiyləgər gedişdir.

*****

Göründüyü kimi, birinci hədəf iki qonşu və strateji tərəfdaş ölkənin - Azərbaycan və Gürcüstanın arasını vurmaq, işğalçı Ermənistanın Gürcüstan üçün dəyərini artırmaqdır. Ancaq İrəvanda unudurlar ki, Azərbaycan və Gürcüstan işğala məruz qalan iki tale ortağı, Ermənistan isə Rusiya ilə işğal ortaqlarıdır. Digər yandan, Gürcüstan özünün iqtisadi, energetik təhlükəsizliyinə, bütövlükdə milli təhlükəsizliyinə görə ilk növbədə Azərbaycana borcludur.

Azərbaycan həm də Gürcüstana ən böyük sərmaye yatıran 3 ölkədən biridir. Azərbaycanla əlaqələrin soyuması qarşılığında Gürcüstana işğalçı Ermənistan nə verə bilər ki, Tiflis nə qazanar? Əlbəttə ki, heç nə. İtirəcəyi isə çox şey olar. Odur ki, Gürcüstan çətin ki, bu tələyə düşmək istəsin.

*****

Bu yerdə xatırladaq ki, Gürcüstan prezidenti Salome Zurabişvili bu ilin martında İrəvanda səfərdə olarkən Nikol Paşinyan ona "iki ölkə arasında əlaqələri yeni mərhələyə qaldırmaq üçün tarixi şans yarandığını" demişdi. Ancaq Rusiyanın vassalı ola-ola, İrəvanın buna necə nail olacağı çox maraqlıdır. Çünki Rusiya qərbyönlü, NATO-yönlü kurs götürən Gürcüstana qəzəblidir və iki ölkə arasında 2008-ci ildən ("5 günlük müharibə"dən sonra) diplomatik əlaqələr kəsilib.

O da maraqlıdır ki, BMT-dəki son səsverməyə cəmi bir neçə gün qalmış Qazaxıstanda verdiyi müsahibədə Paşinyan demişdi ki, İrəvan Rusiya ilə Ermənistan arasında Abxaziyadan keçən dəmir yolunun bərpasına ümid edir. Bu da Ermənistanın BMT-dəki səsvermədə gürcülərin xeyrinə bitərəf qalmasının ikinci ilginc səbəbi: işğalçı ölkə Gürcüstandan özünə yeni dəhliz açılmasını istəyir. Lakin zaman-zaman yazdığımız kimi, bu, Gürcüstan-Azərbaycan əlaqələri üçün "qırmızı xətdir" və belə bir dəhlizin açılması Gürcüstanın digər vazkeçilməz qonşusu - Türkiyənin də xoşuna gəlməyəcək.

İstənilən halda Paşinyan hökuməti Bakı əleyhinə Tiflisə məkrli reveransını edib və Tiflisin hansı reaksiyanı göstərəcəyini gözləyəcəyik...

*****

Azərbaycanın sabiq xarici işlər naziri Tofiq Zülfüqarov hesab edir ki, bu fakt Ermənistanın xarici siyasətindəki məntiqli ziddiyyətləri bir daha ortaya qoyur: "Ziddiyyət ondadır ki, Ermənistan, bir yandan, Rusiyanın verdiyi təhlükəsizlik çətiri altında Azərbaycan ərazisini işğalda saxlamaq siyasətini davam etdirir, başqa yandan, daxildəki iqtisadi böhran məhz işğalla bağlıdır, Rusiya isə Ermənistana iri sərmayələr yatırmır. Sərmayəsiz, xarici kömək olmadan da Ermənistan inkişaf eləmək iqtidarında deyil. Ona görə də o, Rusiyadan aralanmaq, Qərbə doğru getmək, qərbyönlü siyasət sərgiləmək və kreditlər, maddi köməkliklər axtarmaq zorundadır. Ancaq bu iki şeyi birləşdirmək hələ heç kimə nəsib olmayıb. Ona görə ki, Ermənistan Rusiyanın təsir zonasında qaldıqca Qərb ona kömək etməyəcək. Rusiya isə yəqin ki, öz təhlükəsizlik çətirini Ermənistan üzərindən götürəcək, o səbəbə ki, Moskvaya daim rəqib düşərgəyə keçməyə can atan müttəfiq lazım deyil. Bu ziddiyyət BMT-dəki səsvermədə bir daha özünü göstərmiş oldu".

Sözügedən səsvermə, əlbəttə ki, həm də Nikol Paşinyan hökumətinin "Qərbə satılmağa hazırıq!" mesajıdır. Eyni zamanda, Kremlə daha bir təhdiddir. O Kreml ki, Paşinyana hələ də ürək qızdırmır. Bunu ötən həftə N.Paşinyanın Rusiya səfəri bir daha sübut elədi. Erməni baş nazir Rusiya prezidenti Vladimir Putinlə görüşdən yenə məyus ayrıldı, əksinə əliboş döndü. Belə ki, artıq rəsmi məlumatlara görə, o, Rusiyadan alınan təbii qazın qiyməti ilə bağlı Moskvadan hər hansı güzəşt qopara bilmədi. Məsələ yenə açıq qaldı. Paşinyan yalnız bunu dedi ki, "Qiymət məsələsində nə vaxtsa Moskva ilə ortaq dil tapa biləcəyinə ümid edir, yaxın aylarda məsələnin intensiv müzakirəsi davam edəcək".

Kremlin marioneti ola-ola, BMT-də onun maraqları əleyhinə səs verib, ardınca Rusiyadan ucuz qaz diləmək gerçəkdən də, əsl erməni riyakarlığıdır ki var. Şübhə yox ki, İrəvanın bu hoqqaları, çoxbaşlı və hiyləgər oyunları Kremldə diqqətlə izlənir və reaksiya da yəqin ki, təkcə qazın qiyməti ilə bağlı olmayacaq.

Rəsmi Tiflisin isə Bakı ilə İrəvan arasında seçim etmək zorunda qalmayacağına ümid edirik. Çünki bölgədə iki işğalçı var - biri Gürcüstan ərazilərini zəbt eləmiş Rusiyadırsa, digəri Rusiyanın yeganə forpostu və nökəri, Azərbaycan torpaqlarını işğalda saxlayan Ermənistandır. İşğalçının isə yaxşısı, pisi olmaz...

❑ "Yeni Müsavat"ın analitik xidməti

# Ermənilərin Türkiyənin iki vilayətinə səfəri etiraz doğurdu

## İşğalçı ölkədən gələnlərə Van və Qars bələdiyyələrində xüsusi qayğının səbəbi; **Fazil Mustafa:** "Bu, iki qardaş ölkənin strateji maraqlarına ziddir..."

**İyunun 6-da tarixdə ilk dəfə Ermənistanda İrəvan-Van reysi fəaliyyətə başlayıb. Axar.az xəbər verir ki, bunu ermənişünas alim İsmayıl Tanrıverdi qeyd edib. O bildirib ki, cəmi 35 dəqiqəyə Van şəhərinə çatan təyyarə Gürcüstana aid olsa da, sərnişinlər mayın 30-da Ermənistanda keçirilən "ümumerməni" oyunlarının iştirakçısı olan xarici və yerli ermənilər olub.**

İ.Tanrıverdi ermənilərin bu dəfə də öz təxribatlarından geri qalmadıqlarını deyib: "Onlar "Qərbi Ermənistan" adlandırdıqları türk torpaqlarını ziyarət edəcəklərini və avqustun 6-da Musa dağı adlandırdıqları dağın zirvəsində məşəl yandırmaqla öz məqsədlərinə çatacaqlarını bildirmişdilər. Sonra isə Van şəhər meriyasının əsas rəhbərliyinin kürd millətindən ibarət olduğunu nəzərə alaraq, qrup halında ora gedərək bu təyyarə reysinin daimi olması üçün tələb irəli sürəcəklərini söyləyiblər. Bir sözlə, erməni mətbuatı bu səfərin əsas məqsədinin "Ermənilərin ata-baba torpaqlarına ziyarətlərinin sayının artırılması, kürdlərlə dostluq münasibətlərini genişləndirmək və Türkiyəni daxildən zəiflətmək"dən ibarət olduğunu etiraf etməkdən də çəkinmirlər".




Qeyd edək ki, olayla bağlı Türkiyədən hələlik heç bir reaksiya yoxdur.

Ermənistan ermənilərinin Türkiyəyə ayaq açmağa başladığı barədə daha bir məlumat yayılıb. Belə ki, Ermənistan hökuməti yanında idman, mədəniyyət və turizm təşkilatının keçmiş rəhbəri İşxan Zakaryan başda olmaqla bir qrup erməni ictimai xadimi Türkiyənin Qars şəhərinə səfər edib və Qars şəhər bələdiyyəsi tərəfindən qəbul edilib. Bu hadisə azərbaycanlı diasporunun etirazlarına səbəb olub. Virtualaz.org xəbər verir ki, Qarsda təhsil alan azərbaycanlı tələbələr, Əsassız Erməni İddialarına Qarşı Mübarizə Dərnəyi (ASİMDER) və Türkiyə Azərbaycan Dərnəkləri Federasiyası (TADEF) erməni heyətinin qəbul edilməsinə etiraz bildiriblər.

Türkiyə mənbələrinin xəbərinə görə, heyətə İ.Zakaryanla yanaşı Yerevan Dövlət Universitetinin tarix fakültəsinin dekanı Edik Minasyan, fakültənin dosenti Aşot Soqomonyan və digərləri qrupa daxil olub. İ.Zakaryan Ermənistanın Hesablama Palatasının keçmiş rəhbəri və hökumət yanında mədəniyyət, turizm və idman komitəsinin rəhbəri olub, "Çiçəklənən Ermənistan" Partiyasının üzvüdür. Hərçənd türk mənbələri onu mədəniyyət, turizm və idman komitəsinin indiki rəhbəri kimi təqdim edir.

Erməni heyətinin səfərinə etiraz olaraq Qarsdakı Qafqaz Universitetində təhsil alan azərbaycanlı tələbələr mitinq keçiriblər. Universitetin tələbəsi Nihal Məmmədov tələbələr adından danışaraq bildirib ki, erməni heyətinin iyunun 6-da Qars bələdiyyəsində qəbul edilməsindən məyus olublar. Çünki ermənilər Dağlıq Qarabağda soyqırım törədiblər, Azərbaycan ərazilərini işğal altında saxlayırlar.

"Ermənilər Xocalıda azərbaycanlılara qarşı soyqırım törədiblər, hamilə qadınların qarınlarını yarıblar, işgəncə veriblər. Biz bunları unutmadıq, unutmayacağıq. Ermənilərin Qarabağda qətlə yetirdikləri dinc əhali arasında kürdlər də var. Biz bu səfəri qəbuledilməz sayırıq" - çıxışda deyilib.

TADEF başqanı Ercüment Daşdelen isə yaydığı yazılı bəyanatda bildirib ki, erməni heyətinin Qarsın yeni seçilmiş bələdiyyə başqanı tərəfindən qəbul edilməsi ermənilərin tarix boyu türklərə və azərbaycanlılara qarşı etdiyi zülmlərin, qətliamların qurbanlarının xatirələrinə hörmətsizlikdir, cəmi 29.5 faiz səslə seçilmiş bələdiyyə başqanı tərəfindən qalan 70 faizin mənəvi duyğularına təcavüzdür.

ASİMDER başqanı Göksül Gülbey də erməni heyətinin Qarsa səfərini kəskin pisləyib. Bu səfərin Fransadakı erməni diasporunun Türkiyənin İğdır, Qars, Van bölgələrini "Qərbi Ermənistan" elan edərək hətta saxta "dövlətin" pasportunu paylamağa başlamasından cəmi bir neçə ay sonraya təsadüf etdiyini bildirib. Gülbey qeyd edib ki, Ermənistan heyəti ilə yanaşı bu ölkədən 8 avtobus erməni turist də Qarsa gətirilib, onlar sosial şəbəkələrdə fotolar paylaşaraq "Qərbi Ermənistana xoş gəldiniz" sözlərini yazıblar.



Xatırladaq ki, martın 31-də keçirilmiş yerli seçkilərdə kürdlərin partiyası HDP-nin namizədi Syhan Bilgen 29.5 faiz səslə Qarsın bələdiyyə başqanı seçilib. HDP PKK-nın siyasi uzantısı hesab olunur və Azərbaycan, İranla sərhəddə yerləşən Qarsda kürd namizədin qalib gəlməsi həm Bakıda, həm Ankarada narahatlıq doğuran hadisə sayılır. Çünki son vaxtlar PKK-nın İran qolu PJAK fəallaşıb və Qars, İğdır üzərindən Türkiyəyə sızır. Türkiyə mənbələrinin məlumatına görə Ermənistan xüsusi xidmət orqanları da İranın Türkiyə ilə sərhəd kürd kəndlərində fəallaşıblar və PJAK terrorçularına silah-sursat verirlər.

Bəs, Azərbaycan tərəfi məsələ ilə bağlı hansı addımlar ata bilər və atmalıdır?

Deputat Fazil Mustafa "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Ermənistandan bu cür səfərlərin həyata keçirilməsi yerli bələdiyyələrin özfəaliyyəti ilə bağlıdır: "Ona görə də bu məsələyə Azərbaycan tərəfinin müdaxiləsi çətindir. Azərbaycan tərəfi uzağı bu məsələni Türkiyə hökumətinin diqqətinə çatdıra bilər. Türkiyə hökumətinin özü də bu məsələyə bildiyim qədər çox da dərindən müdaxilə eləyə bilmir. Çünki Qarsda, Vanda, İğdırda bələdiyyələri ermənilərlə əlaqələr qurmaqda maraqlı olan qüvvələr ələ keçiriblər, seçkilərdə qalib gəliblər. Ona görə də onların imkanları daha genişdir. Onlar guya bələdiyyələrinin fəaliyyətini genişləndirmək üçün qonşu bölgələrdə olan dövlətlərlə münasibətlərə, alış-verişə üstünlük veririlər. Belə əsaslandırmağa çalışırlar ki, bu, iqtisadi əlaqələr baxımından bölgənin inkişafı üçün vacibdir, Ermənistan bazarı əlverişli bazar olduğuna görə Türkiyə mallarının oraya yönəldilməsi orada öz həllini tapır. Amma bütövlükdə bu bir strateji məsələdir. Həqiqətən də bu məsələ Türkiyə dövlətində, hökumətində bir narahatlıq, narazılıq doğurmalıdır. Lakin hiss olunur ki, hökumət səviyyəsində bu məsələyə bir qədər yumşaqlıq göstərildiyi üçün yerli bələdiyyələr ermənilərlə əlaqələri açıq şəkildə qururlar. Dəfələrlə rəsmi səviyyədə qeyd olunur ki, çoxlu sayda Ermənistandan gələn işçi miqrantları evlərinə vəsait aparırlar. Deməli, müəyyən dərəcədə Türkiyədə erməni miqrantların gəlməsi, çalışması üçün yaşıl işıq yandırılıb. Amma bu, kütləvi şəkildə deyil. Görünür, bələdiyyələr də bu vəziyyəti əsas götürərək belə arxayın şəkildə müstəqil addım atırlar. Lakin bu, Azərbaycanın və Türkiyənin dövlət olaraq strateji maraqlarına ziddir. Biz çalışmalıyıq ki, bunu gündəmə gətirək, Türkiyənin rəsmi qurumları bu məsələdə müəyyən dərəcədə həssaslıq göstərərək bunun qarşısını alsınlar".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

---

# O ağacın kölgəsi neçəyədir?



**Elşad PAŞASOY**
epashasoy@yahoo.com

**Deputat Fazil Mustafa Milli Məclisin yaz sessiyasının son iclasında Azərbaycanla digər postsovet ölkələri arasında paralellik apardı. Dedi ki, ölkəmizdə orta əmək haqqı Gürcüstandan aşağıdır. Millət vəkili onu da dedi ki, Gürcüstan Azərbaycanla müqayisədə turizmdən 600 milyon dollardan çox (!) gəlir götürüb. Kiçik rəqəm deyil. Bu vəsaitlə nə qədər müəssisələr açmaq, nə qədər insanı məmnun etmək mümkündür. Amma...**

Məşhur filmimizdəki fikirləri bir az dəyişib soruşaq ki, Gürcüstanın nəyi və harası turistlərə belə xoş gəlir ki, ora axın edirlər?

Gürcüstan ərazi cəhətdən Azərbaycandan kiçikdir. O da dəniz sahilindədir, Azərbaycan da. Bu, iki Cənubi Qafqaz ölkələrinin iqlim, relyef bənzərliyi də kifayət qədərdir. Üstəlik, əhalimiz Gürcüstanla müqayisədə iki dəfə yarım çoxdur. Deməli, bizim daha çox qazanmaq imkanlarımız var. Onda nəyə görə turizm sektorunda "axsayırıq?"

Ötən il ölkəmizə 2 milyon 850 min turist gəlib. Turistlərin 31,1%-i Rusiya, 20,9%-i Gürcüstan, 10,1%-i Türkiyə, 8,6%-i İran, 3,1%-i Birləşmiş Ərəb Əmirlikləri, 2,7%-i Səudiyyə Ərəbistanı, 2,4%-i İraq, 2%-i Ukrayna, 19%-i digər ölkələrin vətəndaşlarıdır.

Qış aylarında qəbul etdiyimiz turistlərin sayında isə ciddi azalma olub. Niyə? Azərbaycanda qış turizm infrastrukturuna böyük vəsaitlər ayrılır, yeni otellər tikilir, elə isə niyə turistlər Şahdağ Qış Kompleksinin dadını çıxartmaq üçün ölkəmizə axın etmirlər?

Başqa bir məqam. Keçən il İrandan gələn turistlərin sayında 33,4%, Birləşmiş Ərəb Əmirliklərindən gələnlərin sayında isə 6,5% azalma olub. Kimsə deyə bilər ki, İran vətəndaşlarının azalmasının səbəbi sanksiyalardır, bəs ərəblər? Deməli, səbəb başqadır. Əgər sanksiya İran turizminə təsir edibsə, onda onların səsi niyə Ermənistandan gəlir?

Əsas səbəb bahalıqdır, od tutub yanan qiymətlərdir. Elə bilirdik ərəb "pulunun dəlisi"dir, nə desək, verəcək. Taksi görür turistdir, qiyməti ikiqat deyir, kababçı da, çayçı da elə. Keçən il ağacın kölgəsini ərəbə 5 manata satan var idi. Ərəbi qışqırdıb ondan kölgəpulu alan anlamalı idi ki, 2019-da nəinki həmin ərəb, hətta onun tanıdığı digərləri də ölkəmizə gəlməyəcək. Hansı birimiz ağacın kölgəsinə görə pul istəyənlərin ölkəsinə getmək istərik?

Təkcə may ayında Gürcüstana 723 160 əcnəbi gedib, bu da ötən ilin analoji dövrü ilə müqayisədə 14,2% çoxdur. Milli Turizm Administrasiyasından bildirilib yanvar-may aylarında ölkəyə gələn turistlərin sayı 1 655 163 nəfər təşkil edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 121 378 nəfər çoxdur.

Axı hər turist ölkəyə valyuta qazandırır. Niyə biz həm-kəsirimizi müəyyənləşdirib ölkəmizi bölgənin ən cəlbedici məkanına çevirə bilmirik? Tarixi abidələrimiz var ki, oranın yolunu heç özümüz dəqiq bilmirik, nəinki əcnəbi...

Təsəvvür edin, Xəzərin sahilindəki qum adla deyilir, ancaq yay turizmindən faydalana bilmirik. Düzdür, dənizi çirkaba qərq etdiyimizdən, heç özümüz də onun suyuna baş vurmağa ürək eləmirik. Yaxud dənizi hasarlamağımız bir özgə dərddir. Amma axı bunları özümüz edirik, deyirik turist niyə qonşu ölkəyə axışır...

Keçən həftə qohumum Şamaxıya, ordan da İsmayıllıya gedib - ailəlikcə dincəlmək üçün. Deyir, harda oturduqsa, "ətəyimizi unlu" görüb qiymət "oxudular". Gecələmək üçün yer soruşub, 100 manatdan başlayıblar, sadəcə çarpayı. Səhər yeməyi də yox. Hansı ki, mebel mağazasından 100 manata təzə çarpayı almaq olardı... Nə isə. Qohum uşaqlarını da götürüb gecə ilə düz Bakıya sürmüşdü maşını.

Bax, belə. Əcnəbilər də belecə qaçaq düşürlər. Görün hələ onlara hansı qiymət "oxuyuruq".

Belə olmaz. Bəlkə inzibati yollarla, vahid tariflərlə vəziyyəti keçid dövrü üçün nəzarət altına almaq lazımdır. Yoxsa bizdən üz çevirənləri geri qaytarmaq çətin olacaq. Təkcə əcnəbiləri deyil. Məsələn, Gürcüstana axışan azərbaycanlıların da sayı ilbəil artır.

Orta aylıq əmək haqqının aşağı olmasına görə təkcə dövləti qınamayaq, həm də özümüzü qınayaq. Bax, buna görədir ki, Azərbaycanın hesabına ayaq üstə dayanan, neft-qaz ehtiyatları olmayan Gürcüstanda orta aylıq əmək haqqı bizdən yüksəkdir. Turizm ən gəlirli sahələrdən birinə çevrildiyi halda, sən, mən, o, hamımız turisti didərgin salırıq, deyirik bizdən uzaq ol, get başqa ölkəyə... Sonucda bu sektorun gətirdiyi gəlirdən də özümüzü məhrum edirik. Turizm sektorunu inkişaf etdirə bilsək, neftin qiymətini bu qədər həyəcanla izləməzdik.

Görəsən, bu il o ağacın kölgəsi neçəyədir?.

YENİ MÜSAVAT
N 123 (7293) 10 iyun 2019

# Çexiyadakı etirazlar "çirkli pul" sahiblərini təlaşa salıb

## Londonun ardından Çexiyanın da şübhəli gəlirlərə qarşı mübarizəyə başlayacağı gözlənilir

**Ötən həftə Çexiyanın paytaxtı Praqada Avropa Birliyi (AB) fondlarından gələn pulları korrupsiya yolu ilə mənimsəməkdə ittiham olunan baş nazir Andey Babişin istefası ilə bağlı kütləvi aksiyalar davam edib. Belə ehtimallar var ki, etirazlar "şübhəli gəlirlərə qarşı mübarizə"yə qədər böyüyə bilər. Bu cür gedişat Azərbaycandan olan və Çexiyada "çirkli pul"larla mal-mülk alan məmur-korrupsionerlərə yaxşı heç nə vəd etmir. Britaniyada da təxminən eyni ssenari baş verib. Hökumətin əcnəbi zənginlər, korrupsiya ilə bağlı siyasətinə qarşı başlanan etirazlar son nəticədə ötən il Britaniyada "İzahedilməmiş Sərvət Sərəncamı"nın(UWO) qəbulu ilə nəticələndi. Bu qərar Britaniyada potensial çirkli pullara malik şübhəli korrupsioner xarici rəsmiləri hədəfləmək üçün yeni qanundur və ilk olaraq Azərbaycan Beynəlxalq Bankının sabiq sədri Cahangir Hacıyevin həyat yoldaşı Zamirə Haıcyevaya tətbiq edildi.**

Rusiyaya qarşı sanksiyalar dalğasında qəbul olunmuş bu qanun keçmiş SSRİ ölkələrindən Londona axan çirkli pulların "ovuna çıxmağa" imkan verib. Cinayətkarlığa Qarşı Mübarizə üzrə Milli Agentliyin iqtisadi cinayətkarlığa qarşı mübarizə bölməsinin rəisi Donald Tun qanunun qəbulundan sonra demişdi ki, indi London zəngin rusiyalılara münasibətdə potensial məqsədlərinə görə yanaşacaq. Lakin bu qanunun şamil edildiyi ilk şəxs rusiyalı yox, azərbaycanlı Zamirə Hacıyeva oldu. Elə həmin günlərdə Şimali Avropanın aparıcı banklarından biri olan "Danske Bank"ın baş ofisində daxili araşdırmalar zamanı məlum olmuşdu ki, "Danske Bank"ın Estoniya şöbəsi təxminən 200 milyard avro "pul yuyub". Həmin pullar da əsasən keçmiş SSRİ ölkələrindən, xüsusilə Rusiya və Azərbaycandan gəlib.



Qeyd edək ki, Andrey Babiş rəsmi olaraq Çexiyanın ikinci ən varlı şəxsidir. Onun varidatın çoxuna korrupsiya yolu ilə nail olduğu iddia olunur. Babis 2 ildir ki, Çexiyada baş nazir postunu icra edir. Korrupsiyaya qarşı başlayan xalq etirazları isə artıq nəticə verməkdədir. Belə ki, bəzi məmurlar vəzifəsindən azad edilib, bəziləri isə özü istefa verib. Polis və ədliyyə orqanlarının araşdırmalarının daha da genişlənəcəyi deyilir. Hələlik, bu araşdırmaların xarici ölkə vətəndaşlarını da əhatə edib-etməyəcəyi bəlli deyil. Amma bu olarsa, Azərbaycan məmurlarının böyük əksəriyyətinin ciddi problemlə qarşılaşacağı qaçılmaz olacaq. Azərbaycandan olan məmurların qeyri-qanuni yolla əldə etdikləri böyük pulların ən çox daşındığı ölkələr sırasında Çexiya ilk yerdədir. Mətbuatda Azərbaycandan olan, Çexiyada adı biznes və korrupsiyada hallandırılan vəzifəli şəxslərin siyahıları da yayılıb.

Ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin İstintaq Baş İdarəsinin sabiq rəisi, general-mayor Mövlam Şıxəliyev, Sədərək Ticarət Mərkəzinin sahibi Yusif Qədimbəyli, Sumqayıt Baş Gömrük İdarəsinin rəisi əzir Həsənov, Bakı şəhər Mənzil Kommunal Təsərrüfatı Departamentinin rəhbəri Rəfail Mehrəliyev, Quba rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev, sabiq nazir Səfər Əbiyevin və başqalarının Çexiyadakı mal-mülkü haqda mətbuatda bu günə qədər məlumatlar yer alıb. Azərbaycan Beynəlxalq Bankının keçmiş rəhbəri Cahangir Hacıyevin də Çexiyada əmlakları var. 2016-cı ildə həmin mülklərdən birinin foto da yayılmışdı. Mülk Çexiyanın Çeske Budojeviç şəhərində yerləşir, 4 mərtəbəlidir və lüks məhəllədə yerləşir. 3 il əvvəl mülkün bazar dəyəri 4 milyon dollardan artıq qiymətləndirilirdi. Əmlakın Zamirə Hacıyevanın adına rəsmiləşdirildiyi də qeyd olunurdu. Qeyd edək ki, Nərimanov Rayon Məhkəməsi Zamirə Hacıyevanın barəsində 2017-ci il iyunun 1-də həbs qərarı çıxarıb. Məhkəmənin qərarında deyilir ki, Zamirə Hacıyeva ərinin təşkil etdiyi mütəşəkkil qruplaşmanın tərkibində 2009-cu ildən 2015-ci ilin iyun ayına qədər 10 ədəd kredit kartı vasitəsilə Beynəlxalq Bankın filiallarından üst-üstə 18 milyon manatdan çox (o vaxtkı məzənnə ilə) vəsaiti faizsiz kredit adı altında götürüb və dəbdəbəli istirahətə, restoranlara, səyahətə, gözəllik salonlarına və s. xərcləyib. Qərarda göstərilir ki, Z.Hacıyeva 2014-cü ildə Londona gedib. Cahangir Hacıyev Beynəlxalq Bankdan çıxardığı pulları xarici ölkə pasportu daşıyan xanımının adına aldığı mülklərə yatırıb və ya hesablara yerləşdirmişdi. Hesab edirdi ki, Zamirə Hacıyevanın Britaniya vətəndaşlığı onun ölkədən çıxardığı pulların təhlükəsizliyini təmin edib.

İndi isə Zamirə Hacıyevanın misalında Azərbaycandan pul qaçıran hər kəsin narahatlığı üçün ciddi əsasları var. Avropa çirkli pul sahibi olan zənginlər üçün sürətlə cəhənnəmə çevrilməkdədir. Londonun ardından Çexiyada da oxşar hərəkətlilik zamanın korrupsionerlərin əleyhinə işlədiyini söyləməyə əsas verir.

❑ **E.HÜSEYNOV,**
**"Yeni Müsavat"**

# Mövsümündə satılmayan qarpız-yemiş: yeyək, yeməyək?

## **Eyyub Hüseynov:** "Hazırda satılan qarpızlarda nitratın miqdarı normadan iki dəfə artıqdır"

**İyun ayının əvvəli olsa da, artıq ötən aydan başlayaraq bazarlarda qarpız, qovun satılır. Qeyd edək ki, hələ ki, bazarda daha çox qarpız məhsuluna rast gəlirik. Qiyməti isə o qədər də münasib deyil, belə ki, 1 kq-ı 3 manatdan satılır. Yəni əgər 6-7 kiloqramlıq qarpız almaq istəsəniz, 20 manatdan keçməli olacaqsız. Eləcə də qovunun qiyməti hələlik çox bahadır - kilosu 5-6 manat.**

Beləliklə, bazarda artıq qarpız yemiş satışı artsa da, məlum olduğu kimi indiki mövsümdə satılan bu məhsullar əsasən mineral gübrənin köməyi ilə yetişir. Onların əsl yetişmə mövsümü isə iyul ayının sonlarından başlayır. İki ay yarıma ərsəyə gələn qarpızın yetişməsi üçün lazım olan temperatura yalnız həmin aylarda təsadüf olunur. Ona görə də mütəxəssislər adətən avqust ayından tez qarpız, yemiş yeməyi məsləhət görmürlər.



Bəs hazırda bazarda satılan qarpızı yeyək ya yeməyək?

Mövzu ilə bağlı Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov "Yeni Müsavat"a danışdı: "Bizim qurumun əməkdaşları xüsusi cihazlarla satılan qarpızlardakı nitratın miqdarını ölçüb. Məlum olub ki, hazırda satılan qarpızlarda onun miqdarı normadan iki dəfə artıqdır. Əhali bilməlidir ki, hazırda qarpızların və yemişlərin yetişdirilməsində külli miqdarda nitritlərdən istifadə olunur. Nitritlər insanı tədricən zəhərləyən kimyəvi maddələrdir. Normalara görə, bir kiloqram qarpızın tərkibində 60 milli qramdan çox nitrit olmamalıdır. İnsan gün ərzində 200-300 milli qramdan artıq nitrit qəbul etsə zəhərlənər. Hesablasaq görərik ki, bir adam hətta tərkibində normalara uyğun 60 milli qram olan 3 kilo qarpız yesə, artıq o, zəhərlənməyə məruz qalar.

Normadan artıq nitriti olan qarpızı rəngindən, çəkisindən, dadından seçmək olar. Belə ki, əsl qarpızın rəngi tünd al-qırmız olur, görünən zoğları olmur, çəkisi 4-5 kq-dan artıq olmur, bıçaq vuranda çatlayır. Nitriti çox olan qarpızın rəngi isə çəhrayı olur, zoğları görünür, şirinliyin normadan artıq olur. Ümumiyyətlə qarpız və yemiş çox sevilən məhsuldur. Çox yaxşı olardı ki, Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları hələ qarpız-yemişin tarlalarda əkildiyi zaman kənd təsərrüfatı işçilərinin yanında olub, gübrələrin verilməsinə nəzarət etsinlər, məhsulların tarladan satışa qədər olan dövrünü yaxından izləsinlər".

Onu da xatırladaq ki, bu mövsümdə satılan qarpızların qəbulu zamanı tez-tez zəhərlənmə halları baş verir. Mütəxəssislər qeyd edir ki, bu cür zəhərlənmə zamanı insanda qəfil halsızlıq, soyuq tər, təzyiqin qəfildən düşməsi kimi hallar müşahidə edilir. Bəzən də olur ki, qarpızdan zəhərlənən şəxsdə zəhərlənmənin fəsadları qalır. Buna görə də qarpızdan zəhərlənən şəxsə dərhal çoxlu maye içirtmək məsləhət görülür. Daha sonra əgər təzyiq düşübsə, onu soyuq tər basıbsa, zərərçəkənin başı aşağı vəziyyətdə qalmasını tənzimləmək lazımdır ki, başına qan getsin. İlkin yarımdan sonra dərhal həkimə müraciət edilməlidir.

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**
**Musavat.com**



# Qaxda ikiyaşlı uşağı yaşadığı evdə ilan sancıb

**İyunun 8-də saat 23:00 radələrində Qax rayonunun Üzümlü kənd sakini, 2 yaşlı Rəhim Eyvaz oğlu Camalovu ilan sancıb. APA-nın yerli bürosunun məlumatına görə, uşaq dərhal Qax Rayon Mərkəzi Xəstəxanasına çatdırılıb.**

Tibb müəssisəsindən bildirilib ki, müayinə zamanı R.Camalovu yaşadığı evin eyvanında, sağ əlindən ilan sancması məlum olub. Xəstəxananın reanimasiya şöbəsinə yerləşdirilən R.Camalova lazımi tibbi yardım göstərilib, vəziyyəti orta-stabil qiymətləndirilir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Ermənistanı sülhə necə məcbur etməli - hərblə sülh arasında zaman bitir

## İrəvandan konfliktin nizamlanmasını bloklayan sərsəm bəyanatlar davam edir; **Bakıya saxlanılan tək yol:** işğalçı dinc vasitələrlə ram edilməsə, bunu Azərbaycan Ordusu edəcək...

**Ümidlər bəslənilən 2019-cu ilin birinci yarısı artıq başa çatmaqdadır. Əfsus ki, Dağlıq Qarabağa dair danışıqlarda hələ də hansısa pozitiv irəliləyiş qeydə alınmayıb. Ona görə ki, Ermənistanda siyasi rəhbərlik dəyişsə də, onun Azərbaycana münasibətdə işğalçı siyasəti dəyişməz qalır. Hətta yeni hakimiyyət sələfindən də radikal və absurd mövqe sərgələməkdədir.**




Bu da növbəti fakt. Ermənistanın baş naziri Nikol Paşinyan kövrək sülh prosesinin ruhuna daban-dabana zidd daha bir açıqlama verib. Əslində ona açıqlama yox, sayıqlama demək daha doğru olar.

"Dağlıq Qarabağın iştirakı olmadan konflikti həll etmək mümkün deyil". Bu sözləri jurnalistlərə açıqlamasında Nikol Paşinyan deyib. O, Ermənistanın mövqeyinin guya konstruktiv olduğunu və münaqişənin sülh yolu ilə həllinə çalışdığını söyləyib. "Beynəlxalq sənədlərə əsasən, konfliktin 3 tərəfi var. İndi biz Dağlıq Qarabağı danışıqlar masası arxasına qaytarmaq və həllin 3 tərəfin iştirakı ilə davam etdirilməsi üzərində çalışırıq", - deyə o iddia edib. Bununla da öz xalqına yenə yalan danışıb. Çünki heç bir beynəlxalq sənəddə Qarabağ konfliktinin 3 tərəfi olduğu göstərilməyib. Bu, Paşinyanın sırf daxilə ünvanlı növbəti uydurmasıdır.

*****

Beynəlxalq hüquqi sənədlərə görə, Dağlıq Qarabağ konfliktinin iki əsas (Azərbaycan və Ermənistan) və iki maraqlı tərəfi (Dağlıq Qarabağın azərbaycanlı və erməni icması) var. Təsadüfi deyil ki, ATƏT-in Minsk Qrupu həmsədrləri bölgəyə səfər edərkən əsasən Bakı və İrəvanda danışıqlar aparır, vaxtaşırı Dağlıq Qarabağın azərbaycanlı icması ilə də bir araya gəlirlər. Necə ki, son səfərləri zamanı da bunu etdilər.

"Həmsədrlərin azərbaycanlı icması ilə görüşü belə formatda keçirilmiş ilk görüş deyil". Bu haqda Azərbaycan XİN-dən verilən məlumatda deyilir. Nazirlik bildirir ki, indiyədək həmsədrlər bölgəyə səfərləri çərçivəsində Dağlıq Qarabağın erməni icması ilə görüşdükləri kimi, azərbaycanlı icmanın nümayəndələri ilə də silsilə görüşlər keçiriblər. "Burada təəccüblü heç bir şey yoxdur. Bu, vasitəçilərin mandatının bir hissəsini təşkil edir. Həmsədrlərin 1995-ci il tarixli mandatında qeyd edilir: "Həmsədrlər öz fəaliyyətlərində ATƏT-in norma və prinsipləri, BMT Nizamnaməsi, ATƏM qərarları, o cümlədən 1992-ci il 24 mart Nazirlər Şurası qərarı və Budapeşt zirvə görüşü qərarları, eləcə də BMT TŞ-nin müvafiq qətnamələrini rəhbər tutacaqlar". Həmsədrlərin bu ilin 9 mart tarixində verdikləri bəyanatlarında onların vasitəçiliyi ilə İrəvan və Bakı arasında aparılan təmaslarla yanaşı, maraqlı tərəflərlə də müzakirələrin davam etdirildiyi qeyd edilib. Vurğulamaq istərdik ki, Dağlıq Qarabağın azərbaycanlı icmasının mövqeyi və digər məcburi köçkünlərlə yanaşı onların öz torpaqlarına geri qayıtması məsələsi hər zaman danışıqların bir hissəsini təşkil edib. Bu məsələ həmsədrlərin yuxarıda qeyd edilən bəyanatında da öz əksini tapıb və "bütün məcburi köçkünlərin və qaçqınların öz evlərinə geri qayıtması" danışıqların mühüm elementi qismində əks olunub. Birmənalı şəkildə qeyd etmək olar ki, ölkəmizin Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması danışıqların mühüm hissəsini təşkil edir. Eyni zamanda, nəzərə almaq lazımdır ki, münaqişənin həlli üzrə danışıqlar ATƏT-in müvafiq qərarlarına uyğun olaraq, Ermənistan və Azərbaycan arasında aparılır və bu yanaşma Minsk Qrupunun həmsədrləri tərəfindən də dəstəklənir", - deyə açıqlamada qeyd olunur.

*****

Azərbaycan XİN-in açıqlamasından da göründüyü kimi, Paşinyanın "beynəlxalq sənədlərə əsasən konfliktin 3 tərəfi var" fikri ən zəif tənqidə belə dözümsüzdür və başdan-ayağa absurddur. Belə bəyanatların əsas hədəfi, heç şübhəsiz, vaxt udmaq, yeni atəşkəs rejimini uzatmaq və bir də Ermənistan üzərindən "işğalçı" yarlığını götürməyə cəhd eləməkdir. Guya Azərbaycan təkcə Ermənistanla deyil, həm də Dağlıq Qarabağla münaqişədə olub və Ermənistan, sadəcə olaraq, "öz müqəddəratını təyin eləmək istəyən" Dağlıq Qarabağ ermənilərinə dəstək olub. Yəni guya o, işğalçı deyil. Halbuki hamı bilir ki, bu münaqişə Ermənistanın Azərbaycana əsassız torpaq iddialarından yaranıb və hər iki tərəfdən on minlərlə alamın ölümünə səbəb olub.

Paşinyanın son Qarabağ açıqlaması bir daha göstərir ki, düşmənin dinc yolla torpaqlarımızı qaytarmaq niyyəti yoxdur. Bu, eyni zamanda, o anlama gəlir ki, Minsk Qrupunun həmsədr dövlətləri təcavüzkarı ağla gətirmək üçün gərəkən addımlar atmağa, işğalçını sülhə məcbur eləməyə, onu cəzalandırmağa hazırlaşmır. Odur ki, Azərbaycanın tək yolu qardaş Türkiyə və digər dost-tərəfdaş ölkələr hesabına özünün hərbi qüdrətini və döyüş təcrübəsini günbəgün artırmaqdır.

*****

Yeri gəlmişkən, iyunun 7-dən Naxçıvanda "Sarsılmaz qardaşlıq-2019" Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təlimi başlayıb. Müdafiə Nazirliyindən verilən məlumata görə, təlimin ssenarisinə əsasən Əlahiddə Ümumqoşun Ordunun və Naxçıvan Muxtar Respublikasının güc strukturlarının, eləcə də Türkiyə Respublikası Silahlı Qüvvələrinin bölmələri "Həyəcan" siqnalı ilə qaldırılaraq təlim rayonuna çıxarılıb.

Təlimə 5000 nəfərədək şəxsi heyət, 200-dən artıq tank və digər zirehli texnika, 180-ə yaxın müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri və minaatan, 21 ədəd təyyarə, helikopter, pilotsuz uçuş aparatı və silahlanmaya yeni daxil edilmiş müxtəlif növ müasir silah və texnika nümunələri cəlb olunub.

İyunun 11-dək davam edəcək təlimin əsas məqsədi qərargahların müştərək döyüş əməliyyatları planlarının hazırlanması, şəxsi heyətin peşəkarlıq səviyyəsinin artırılması və birgə tapşırıqları icra etmək vərdişlərinin inkişaf etdirilməsi ilə Azərbaycan və Türkiyə hərbi bölmələrinin qarşılıqlı fəaliyyətinin koordinasiyasına nail olmaqdır.

Bu təlimlər, sözsüz ki, işğalçı Ermənistanla yanaşı, həmsədr ölkələrə də mesajdır. O anlamda ki, əgər işğalçını özləri, dinc üsullarla ram eləməsələr, bu işi Azərbaycan Ordusu görəcək. Artıq Ermənistanı sülhə məcbur etmə zamanı çatıb. Hərblə sülh arasında zaman bitir...



## Sərkisyana qarşı cinayət işi açılır: aprel savaşı...

**"Paşinyan hökuməti öz reytinqini qaldırmaq üçün bir neçə oliqarxa qarşı cinayət işi açacaq". Bu məlumatı "Qraparak" qəzeti yayıb (axar.az).**

"Daxili sorğular hökumət üçün elə də xoş olmayan nəticələr ortaya çıxarır. Hər gün azalan reytinqin düşməsinin qarşısını almaq və ya onu qaldırmaq üçün baş nazir genişmiqyaslı kadr dəyişiklikləri həyata keçirmək niyyətindədir. Bununla bərabər digər tədbirlər də görüləcək. Sonuncu variant kimi Serj Sərkisyan və bir neçə oliqarxa qarşı cinayət işi açılacaq. Bunun üçün hüquq-mühafizə orqanları 3 istiqamətdə tədbir həyata keçirir. Birinci istiqamət "1 mart işi" çərçivəsində ona qarşı ifadələrin alınması, ikinci istiqamət aprel müharibəsi, üçüncü istiqamət isə Mehri dəmiryolu işidir", - xəbərdə bildirilir.

Azərbaycan Respublikasının Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında nəşr olunur. Səhifəni hazırladı: Siyasət şöbəsi

# ABŞ Türkiyəyə yenə vaxt verdi: “S-400 qovğası” pik həddə

## Əhəd Məmmədli: “Türkiyə imtina edən deyil...”

**Türkiyənin Rusiyadan alacağı S-400-lərlə bağlı Amerika başda olmaqla, bir sıra ölkələrlə, o cümlədən, NATO-dakı müttəfiqləri ilə yaşadığı gərginlik pik həddə çatmaqdadır. Son olaraq, ABŞ türk pilotlara F-35 təyyarələrində təlim verməkdən imtina edib.**

Göründüyü kimi, Amerika bu məsələdə qətiyyətli mövqeyini davam etdirir və qardaş ölkəyə son şans kimi gələn ayın son gününə qədər vaxt verir. Türkiyənin bu məsələdəki mövqeyi hər kəsə məlumdur. Rəsmi Ankaranın milyardlarla vəsait xərclədiyi S-400-lərdən son ana qədər imtina etməyəcəyi daha real görünür. Belə olan təqdirdə Türkiyənin hansı təhlükələri yaşaya biləcəyi barədə ekspertlərin ən müxtəlif mövqeləri var. İlk olaraq, göz önünə qardaş ölkənin NATO-dan çıxarıla biləcəyi gəlir. Ekspertlərin bu məsələ ilə bağlı ehtimallarından biri də odur ki, Türkiyə siyasi bazarlıqda qiymətləri daha da artırmaq üçün bu cür qətiyyət göstərir, son anda S-400-lərdən imtina edə bilər.

Politoloq Əhəd Məmmədli məsələnin həlli üçün iki yol olduğunu düşünür: “Ya S-400-ləri Türkiyə alacaq və F-35-lərdən birdəfəlik imtina edilib ABŞ-la münasibətlər daha da gərginləşəcək, ya da S-400-lər də, F-35-lər də alınacaq. Düşünürəm ki, ABŞ-la bu məsələdə anlaşılacaq və hər iki halda S-400-lər alınacaq. Bu məsələ elə bir vazgeçilməz vəziyyətə gəlib çatıb ki, raket kompleksindən Türkiyə imtina edən deyil. Dərinliyində bunu ABŞ da başa düşür. Yaxşı olar ki, sifətini qorumaq şərti ilə hər iki tərəf bu məsələdə çözüm yolu tapsın. Çözüm yolu isə Ankaranın Vaşinqtona təklif etdiyi ABŞ-ın




S-400-lərlə bağlı narahatlığını aradan qaldırmaq üçün ümumi türk-amerikan texniki-araşdırma qrupunu yaratmaqdır. Trampın Ərdoğanla telefon danışığından sonra bu cür razılaşma əldə olunub - baxmayaraq ki, Pentaqonla Dövlət Departamenti bu cür razılaşmanın əleyhinə idi. Tramp bu düyünün çözülməsi yolunda rasional addım atmağa qərar verib. ABŞ qorxur ki, Türkiyə S-400-ləri alandan sonra Ankaranın da iştirak etdiyi F-35 projesinin gizli informasiyası radarlar vasitəsilə rusların əlinə keçə bilər. ABŞ Müdafiə Nazirliyi iki aydır Türkiyə ilə birlikdə rus raket kompleksi S-400-lərin araşdırması üçün nəzərdə tutulan texniki-araşdırma qrupunun yaranmasında imtina edirdi. Hələlik nə Ağ Ev, nə də Pentaqon bu informasiyanı şərh etməyib. Bu qərar sayəsində Türkiyə nəhayət ki, S-400-ləri və ardınca F-35-ləri də ala bilər”.

Politoloq fikirlərinə bu cür davam etdi: “Qeyd etdiyim kimi, Ankara F-35-lər projesinin ortaqlarındandır və bu görünməz qırıcıların alınması üçün bir milyard dollardan çox pul xərcləyib. İyul ayında S-400-lərin tam alınması və Türkiyəyə göndərilməsi gözlənilir. Amerikalılar Türkiyə tərəfinə S-400-lərin alınmasının 9 ay uzadılmasını istəyiblər. Türkiyəlilər isə amerikalıların bu təklifini rədd ediblər. Bütün bunlara rəğmən, onu da unutmayaq ki, Ağ Evin Konqres üzərində nəzarəti yoxdur. Konqres S-400-lərin alınacağı təqdirdə F-35-lərin Türkiyəyə satılmaması üçün proyekt hazırlayıb və buna görə sanksiyaların tətbiq edilməsi tələbində bulunur. Göründüyü kimi, Ağ Ev bir tərəfdə, Konqres, Dövlət Departamenti və Pentaqon digər tərəfdə Türkiyə məsələsində qarşıdurmadadırlar. Trampa imkan verilsə, o Ərdoğanla konsensusa gələcək. Qardaş ölkə öz mövqeyində israrla durmalıdır. Hesab edirəm ki, sonda bu məsələdə ortaq mövqeyə gəlinəcək. Türk pilotların geri qaytarılması amerikan hakimiyyətinin yuxarıda qeyd etdiyim reaksioner tərəfinin təşəbbüsüdür. Həmin bu tərəf Ankara ilə konfrontasiyaya getmək istəyir. Ümid edək ki, sonda Vaşinqtonda dağıdıcı deyil, qurucu tərəfin mövqeyi üstələyəcək. Türkiyənin NATO-dan çıxarılması mübahisə mövzusu deyil, ola da bilməz. Çünki hələ də NATO Türkiyəyə, Türkiyə də NATO-ya lazımdır. S-400-lərdən imtina mümkün deyil. Əgər Vaşinqton bunda israr edəcəksə, Ankara seçim arasında qalacaq və seçimi S-400-lərdən yana olacaq. Vaşinqton gərək vaxtında bunu fikirləşərdi - F-35-lərin kodunu Ankaraya verməkdən imtina edəndə. Artıq iş-işdən keçib. ABŞ ya S-400-lər, ya da F-35-lər yanaşmasından geri çəkilməsə, Türkiyə S-400-lərin üstündə duracaq. Düz də edəcək. F-35-lərdən imtina Türkiyə üçün dünyanın sonu deyil. Bunu Amerikada da yaxşı başa düşürlər. Bu məsələdə hamı üçün müsbət nəticəyə gəlinəcəyi düşüncəsindəyəm. Sonda isti yox, soyuq başlar qalib gələcək. Hesab edirəm ki, Amerika S-400-lər problemini Türkiyə ilə həll edib, F-35-lərini müttəfiqinin almasına əngəl törədən deyil. Türkiyə üçün Rusiya ilə münasibətlər çox vacibdir. Ona görə heç bir halda S-400-lərdən imtina edilən deyil. Dövlətlərarası münasibətlər hər hansı bazarlıqdan daha üstündür. Türk-rus münasibətlərinin bu səviyyəyə çatması üçün çox əngəllərdən keçilib. S-400-lərdən imtina türk-rus yaxınlaşması üçün edilən bütün səyləri, əziyyəti yerə çırpmaq demək olardı. Buna Ankara getməz və niyə də getməlidir? Vaşinqton belə istəyir, ona görə? Ankara Vaşinqtonun hər istəyini qəbul etmək məcburiyyətində deyil. Nə ABŞ o gücdə deyil, nə də Ankara zəifdir. Üstəlik artıq Ankara ilə Moskva birlikdə S-500 raket kompleksi projesi üstündə işləməyi düşünürlər. Bu da o deməkdir ki, S-400-ləri Ankara Moskvadan alacaq. Ya Vaşinqton seyrçi rolunda qalıb Ankara ilə ziyanverici qarşıdurmaya gedib, Ankaranı daha da özündən uzaqlaşdırıb, Moskvaya yaxınlaşdıracaq, ya da Ağ Ev Ankara ilə anlaşıb, S-400 problemini də çözəcək, F-35 məsələsində də razılaşacaqlar”.

**❑ Cavanşir ABBASLI,**
**“Yeni Müsavat”**

# İstanbul kritik seçki astanasında - 2 həftə qaldı

## İmamoğlu və Yıldırım canlı debata çıxırlar; ekspertlərdən son gözləntilər

**İyunun 23-də İstanbulda keçiriləcək bələdiyyə seçkilərinin ikinci turuna doğru keçən hər gün proseslər qızışır. Hakim AKP-nin namizədi Binəli Yıldırımla ana müxalifət sayılan CHP-nin iddiaçısı Əkrəm İmamoğlu arasında keçəcək seçki mübarizəsində Türkiyə tarixində bir ilk yaşanacaq. Belə ki, namizədlər seçkiyə bir həftə qalmış bütün kanalların canlı yayımlayacağı debata çıxacaqlar.**

Ekspertlər bu debatdan çox şeyin asılı olacağını bildirirlər. Bundan əlavə, əsas diqqətlər kürdlərin ən çox yaşadıqları İstanbulda edəcəkləri seçimlərə yönəlib. Bu ana olan təxminlərə görə, kürdlər CHP namizədinə səs verəcəklər ki, bu da həlledici ola bilər.

Politoloq Elşən Mustafayev bu turun daha gərgin olacağını düşünür: “Birinci turda İmamoğlunun qələbəsi AKP-də şok yaşatdı. Onlar bu şəkildə məğlub olacaqlarını gözləmirdilər. Türkiyə miqyasında, xüsusilə Bəyik düzü istisna olmaqla İstanbulun özündə belə tanınmayan bir namizəd bütün planları alt-üst etmişdi. Nəticələrin ləğvindən sonra ikinci turun kampaniyası yenə də İmamoğlunun öndə olması təsəvvürünü yaradır. Hadisələrin bu istiqamətdə getməsinin ciddi səbəbləri var. İlk olaraq Binəli Yıdırım nüfuzu, liderliyi, insanlarla ünsiyyət qurması baxımından çox zəif namizəd idi. Bu səbəbdən hələ birinci turda onun seçki kampaniyasının önündə bütün mitinqlərdə prezident Ərdoğan və AK partiya rəhbərliyi gedirdi. Hətta o zaman elə təəssürat var idi ki, seçki sanki Ərdoğan və İmamoğlu arasında gedir. Ancaq söhbət prezident yox bələdiyyə seçkilərindən getdiyindən, seçim günü AK partiya elektoratının bir qismi İmamoğluna səs vermişdilər. İmamoğlunun uğurunun əsas səbəbi isə kampaniyanı öz partiyasının çərçivəsindən çıxarması oldu. Türkiyədə sağ, sol anlayışlarına hər zaman çox diqqət yetirilib. O səbəbdən də CHP sədri bu kampaniyanın önündə çox görünmədi. İmamoğlu namizəd olaraq bütün tərəflərə müraciət etmişdi. Yeni lider olaraq insanlara özünəməxsus yanaşmaları da hər tərəfdən ona rəğbət qazandırmışdı. İkinci turda isə hesab edirəm ki, İmamoğlu üstünlüyü daha çox olacaq. Əgər seçkinin nəticələri dərhal ləğv edilsəydi, o zaman bir az fərqli situasiya olardı. Ancaq həftələrlə təkrar saymadan sonra bələdiyyə sədri mandatını İmamoğluna verib, 18 gün sədrlik edəndən sonra orucluğun ilk günü mandatının əlindən alınması hətta AK partiyaya səs vermiş insanların belə xoşuna gəlmədi. Türk xalqının xarakterində əzilən, haqqı tapdalanan insana dəstək hər zaman olub. Müxtəssislər hesab edir ki, bu hadisələrdən sonra birinci turda İmamoğluna səs verməyənlərin bir hissəsi ona səs verə bilərlər. İmamoğlunun Yıldırım ilə canlı debata çıxmasına gəlincə isə bu debat



əminəm ki, İmamoğlunun mövqelərini möhkəmlədəcək. Çünki son aylar baş verən hadisələrdən dolayı Yıdırımın həm mövqeləri, həm də İmamoğlu ilə müqayisədə insanların rəğbətini qazanmaq bacarıqları zəifdir. Əlində Yıldırım ilk gündən Ərdoğanın nüfuz baqajına arxayın olaraq seçkiyə qatılmışdı. Amma göründü ki, insanlar artıq hərəyə özünə görə qiymət verirlər. İstanbulda kürd əsilli seçicilərin sayı nəticələri təsir edəcək qədər böyükdür. Ona görə də bütün seçkilərdə bütün partiyalar müxtəlif yollarla bu seçicilərin səsini almağa çalışıblar. AK partiya bu kəsimin səslərindən vaxtilə çox bəhrələnib. Amma son seçkilərdə kürdlər namizəd çıxarmamaları ilə İmamoğluna dəstək verdilər. İkinci turda isə AKP bu dəstəyin heç olmasa bir hissəsini özünə tərəf çəkməyə çalışır. Təsəvvür edin ki, Binəli Yıldırım Diyarbəkirdə görüşdə Kürdüstan ifadəsini işlətməyə məcbur olub. Halbuki Böyük Millət Məclisində Kürdüstan ifadəsini işlədən millət vəkilin maşının yarısı kəsilir və iki iclas zala girişinə qadağa qoyulur. Bu qərar AK partiya çoxluğunun təklifi ilə qəbul olunub. Hesab edirəm ki, ikinci turda da İstanbulda yaşayan kürd seçicilər İmamoğluna dəstək verəcəklər və bu dəstəyin onun qələbəsində rolu əhəmiyyətli olacaq”.

“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu: “İlk turda hamımız gördük ki, nəticələr yarıya bölündü, 5-10 min səs fərqi oldu. Düşünürəm ki, bu turda da fərq o qədər böyük olmayacaq. Namizədlər arasında keçiriləcək canlı debatdan çox şey asılı olacaq. Kürd faktoru da seçkilərdə önəmli olacaq. Yaşayış baxımından dünyanın ən böyük kürd şəhəri İstanbuldur. Bu şəhərdə yaşayan kürdlərin səsləri həlledici olacaq. Ona görə hər iki namizəd kürdlərin səsləri uğrunda mübarizə aparır. Birinci turda kürdlərin səslərinin çoxu Əkrəm İmamoğluna getmişdi. Əsas məsələ odur ki, Binəli Yıldırım o kürdləri inandıra bildimi, yaxud qarşıdakı günlərdə bu istiqamətdə nələr edəcək?”.

Beynəlxalq münasibətlər üzrə şərhçi Əziz Əlibəyli seçkilərin önəminə toxundu: “İstanbul seçimləri adi bir məsələ kimi bitmədi. Nəticələrin nə cür olmasından asılı olmayaraq, Türkiyə siyasəti şəkilləndi, maraq qazandı. Ən əsası, müxalif camiə sima dəyişdirdi və İstanbulda qalib gələn İmamoğlu son gedişlərin ardınca boyundan daha ucaya atıla bildi. Bu, o deməkdir ki, 2023-ün Türkiyəsində böyük ehtimalla İmamoğlu Ərdoğana qarşı əsas müxalif lider ola biləcək. İstanbul seçimləri ilə bağlı proqnoz verərkən unutmaq olmaz ki, hər iki siyasi qüvvə Yüksək Seçim Kurulunu hədəf alıb, saxtakarlıqların olduğunu iddia edir. Bu paradoksda İmamoğlunun 18 günlük bələdiyyə başqanlığını onun aktivinə yazmaq lazımdır və məhz seçimlərin ləğvindən sonra onu gücləndirən ikinci detaldır. Üçüncüsü, Yıldırım uğursuz namizəd idi, gənc, dinamik, publikaya işləyən rəqibi qarşısında yorğundur, tükənib, ideyaları köhnədir, sanki zorla hərəkət etdirilir kimi təsir bağışlayır. Dördüncüsü, bu prosesin gedişində İmamoğlu haqqında iddiaların yayılması - ”Ermənidir", “yunandır”, “PKK-çıdır” və s. kimi məsələlər onun lehinə işlədi. Ən nəhayət, beynəlxalq siyasi qüvvələr (əsasən Qərb) onun zehniyyətindən yanadır. Anket nəticələrinin əksəriyyətində İmamoğlu Yıldırımı iki - üç faiz səslə qabaqlayır. İstanbul seçiminin qalibi kim olacaq sualının cavabını əslində İstanbuldakı kürdlər və HDP yandaşları verəcək. Amma burda mən HDP-nin keçmiş seçkidəki müttəfiqi CHP-yə xəyanət edəcəyindən şübhələnirəm. Hesab edirəm ki, bu qüvvənin AKP ilə separat danışıqlara getməsi yüksək ehtimalla baş verəcək. Belə olduqda isə İmamoğlunun qalib gəlməsi mümkün olmayacaq".

**❑ Cavanşir ABBASLI,**
**“Yeni Müsavat”**

# Bakı zooparkında bir heyvan da qalmayıb

**Leyla Əliyevanın təşəbbüsü ilə uşaqların sevimli məkanı müasirləşir, böyüdülür, heyvanlar isə Qaradağa aparılıb; məmurların heyvanat parkını Qobuya köçürüb yerində göydələn tikmək arzusu ürəyində qaldı...**

**Bakı əhli bu ilin qışından zooparkın üzünə həsrət qalıb. Elə zooparkda saxlanan heyvanlar da "köhnə ev"lərindən didərgin düşüblər. Heyvanat parkında gedən yenidənqurma işləri ilə əlaqədar olaraq, uşaqların sevimli məkanı qapadılıb. Bazar günü "Yeni Müsavat" üçün reportaj hazırlayarkən ərazidəki mühafizəçilərdən öyrəndik ki, artıq bütün heyvanlar zooparkdan köçürülüblər.**

Bir neçə ay əvvəl burada olarkən bəzi heyvanların saxlandığına şahid olmuşduq. Bəzi quşlar, meymunlar, bəbir və şir zooparkda idilər. Ancaq onlara da "müvəqqəti narahatlığa görə üzr istəyirik" deyib aparılıblar.

Öyrənirik ki, heyvanlar hazırda Qaradağ rayonunda xüsusi bir ərazidə saxlanırlar. Zoopark istifadəyə verildikdən sonra hamısı gətiriləcək. Üstəgəl, yeni heyvanların da olması gözlənilir. Amma nə mühafizəçilər, nə ərazidə işləyənlər heyvanat parkının nə vaxt təhvil veriləcəyini dəqiq bilirlər. Onlar 2019-cu ilin sonuna qədər işlərin yekunlaşacağına inanmırlar.

Hazırda bütün heyvanların saxlandığı qəfəslər yenilənir, ərazidə səliqə-sahman yaradılır, tam müasir bir zoopark qurulur. İçəriyə isə kənar şəxslərin girişi qadağandır.

Əslində sentyabra zooparkın hazır olacağı ehtimal edilirmiş. Lakin parkın ərazisinin genişləndirilməsi işləri artırıb. Bu da öz növbəsində o deməkdir ki, uşaqlar daha nəhəng heyvanat parkını görmüş olacaqlar. Yeri gəlmişkən, zoopark rəhbərliyi, eləcə də ərazidəki kafe və çayxanaları işlədənlər uzunmüddətli ziyana düşüblər. Çünki hər gün, xüsusən də həftə sonu yaxşı qazanc əldə edirdilər.

Zooparka giriş 1 manat idi və hər ailədən azı, 2-3 nəfər gəlirdisə, gündəlik normal gəlir götürmək olurdu. Həmçinin, kimi çay içirdi, kimisi uşağına nə isə alırdı. Deyilənlərə görə, zoopark yenidən istifadəyə veriləndə çayxanalar yığışdırılacaq, nizam-intizam yaradılacaq, yalnız bir kafe fəaliyyət göstərəcək. Eləcə də zooparka giriş qiymətinə də baxılacağı bildirilir.

Buna qədər heyvanat parkında giriş 1 manat, 10 yaşdan yuxarı olanlara 2 manat idi. İndən belə adambaşı 1 manat yox, 2 manat olacağı gözlənilir. Amma bu barədə hələlik rəsmi açıqlama yoxdur, el arasında ağız-ağız dolaşan xəbərdir.

Hazırda parkın ərazisi 2.25 hektardır, lakin təmir və genişləndirmə işləri yekunlaşdıqdan sonra 4.25 ha olacaq. Həyata keçiriləcək təmir-quruculuq tədbirləri çərçivəsində Zooloji Parkın ərazisinin genişləndirilməsi, ziyarətçilər üçün daha rahat məkana çevrilməsi, heyvanların saxlanma şəraitinin yaxşılaşdırılması və ərazidə müxtəlif əyləncə obyektlərinin istismara verilməsi nəzərdə tutulub.

Zoopark fiziki qüsurlu şəxslərin, həmçinin bütün yaş qruplarından olan ziyarətçilərin rahatlıqla istirahət edəcəyi və maarifləndirici məkan olacaq. Zoopark əməkdaşları üçün beynəlxalq təcrübəli mütəxəssislər tərəfindən təlimlər keçiriləcək. Heyvanlar EAZA (Avropa Zoopark və Akvariumlar Assosiasiyası) standartlarına uyğun şəraitdə saxlanılacaqlar. Heyvanların saxlandığı qəfəslər (volyerlər) hər növün özünəməxsus ehtiyacları nəzərə alınaraq hazırlanacaq və onların sahəsi genişləndiriləcək.
















Ziyarətçilər heyvanların təbii davranışlarını izləyə biləcək, maarifləndirici tablo və materiallar əsasında oradakı müxtəlif heyvanlar barədə ətraflı məlumat əldə edəcəklər. Zoopark cəmiyyətin bütün hədəf qrupları üçün heyvanlar və təbii ekosistem, xüsusən Azərbaycanın nadir təbiəti haqda məlumat əldə edə biləcəkləri tədris, tədqiqat və konservasiya mərkəzinə çevriləcək.

Bundan əlavə, zooparkın daxilində azyaşlı uşaqlar üçün ev heyvanlarından ibarət sevimli guşə (pet farm) və kəpənəklər evi də fəaliyyət göstərəcək. Yaralı və xəstə heyvanlar üçün xüsusi karantin zonası və reabilitasiya mərkəzinin də tikilməsi nəzərdə tutulur.

Eyni zamanda, Zooloji Parkın fəaliyyətinin səmərəliliyinin artırılması və ictimaiyyətlə əlaqələrin təkmilləşdirilməsi məqsədilə yeni internet səhifəsi yaradılacaq.

Maraqlıdır ki, bir neçə il qabaq zooparkın Qobuya köçürülməsi planda idi. "Gənclik" metrosu yaxınlığında yerləşən heyvanat parkının yenidən qurulması belə deməyə əsas verir ki, köçürülmə olmayacaq.

Elə şəhər sakinləri də zooparkın Qobuya köçürülməsinin əleyhinə idi. Çünki yol uzaqdır və əsasən uşaqların marağına səbəb olan bu yeri mərkəzdən ucqara daşımaq məntiqə uyğun deyildi. Hətta deyilirdi ki, hansısa məmurların zooparkın ərazisinə gözü düşüb, yerində göydələnlər ucaltmaq fikrindədirlər. Amma onların arzusu ürəyində qaldı və ərazidə təmir-tikinti işləri öz tempi ilə davam edir.

Zooparkın "Gənclik"də saxlanmasında Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın əsas rolu olub. Hazırda ərazinin girişindəki lövhədə abadlıq işlərində iştirakı olan qurumların adları qeyd olunub. Onların sırasında IDEA İctimai Birliyinin da adı var. L.Əliyevanın təşəbbüsü ilə zoopark genişləndirilir.

Habelə, Bakı Abadlıq İdarəsi tərəfindən bu işlər həyata keçirilir. Ümumiyyətlə, IDEA-nın Heyvanlara Qayğı Mərkəzi var və təməli 2014-cü ilin oktyabrında qoyulub. Mərkəz Bakı şəhərində və ətraf ərazilərdəki sahibsiz heyvanların müayinə və müalicəsi, həmçinin onların qısamüddətli sığınacağı üçün nəzərdə tutulub.

Məlumat üçün xatırladaq ki, zooparkda 154 növdə 1200 heyvan məskunlaşıb. Zoopark 40 növ məməli, 40 növ balıq, 11 növ sürünən, 63 növ quşun məskənidir. Bakı Zooloji Parkında Afrika aslanı, Amur pələngi, yaquar, bəbir, Şotland ponisi var. Habelə, Avropa cüyürü, pavian qamadril, yenot, Nil timsahı, Afrika dəvəquşusu, ara tutuquşuları kimi bizim təbiətə xas olmayan heyvanlar da saxlanılır.

Burada adı "Qırmızı Kitab"a düşmüş, nəsli kəsilməkdə olan heyvanlar yaşayır. Bunlara nəcib maral, ceyran, qarasaqqal, qara kərkəs, ağbaş kərkəs, qartalların bir sıra növləri, meşə quşlarından qırqovullar, su quşlarından qızıl qaz, sultan toyuğu aiddir. Aralıq dəniz tısbağası və Amur pələngi yalnız Azərbaycanda deyil, bütün dünyada qorunur. Qidalanmaya gəlincə, yonca otu, arpa, buğda, qarğıdalı, darı alınır. Tenderi udan tədarükçülər heyvanlara lazım olan meyvə-tərəvəzi həftədə bir dəfə gətirirlər.

Heyvanların qış rasionu başqadır. Yay rasionundan fərqli olaraq, heyvanlara 20 faiz çox qida verilir. Bu ətyeyən və otyeyən heyvanların hamısına aiddir.

Yada salaq ki, 1928-ci ilin dekabrından Bakının keçmiş Lunaçarski, indiki Nizami parkında bir guşə kimi zoobağ fəaliyyətdə olub. Bu tarix heyvanat parkının yaradılma tarixi kimi qəbul edilir. Müxtəlif zamanlarda məkanı dəyişdirilərək genişləndirilən zoopark 80-ci illərə qədər Bayıl qəsəbəsində bir hektar sahədə fəaliyyət göstərib.

1982-ci ildə həmin ərazidə torpağın sürüşmə təhlükəsi nəzərə alınaraq indiki yerinə köçürülüb və sahəsi bir hektardan çox artırılıb. Zooparkın gələcək inkişafını təmin etmək məqsədilə Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən 2001-ci ildə burada ərazi artırılaraq 4,25 hektara çatdırılıb. Hazırda Bakı Şəhər Heyvanat Parkı xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri siyahısına daxil edilərək qorunur.

Park 1995-ci ildən 18 ölkədən 70-dək zooloji parkın daxil olduğu Avrasiya Regional Zooparklar və Akvariumlar Assosiasiyasının üzvüdür və bu heyvanat parkları ilə geniş əməkdaşlıq əlaqələri qurulub. 1995-ci ilə qədər Bakı zooparkında 60 növ və 200 baş heyvan nümayiş olunurdu. Ötən illər ərzində burada heyvanlar aləmi daha da zənginləşdirilib. Balıqlar üçün akvarium, sürünənlər üçün terrarium, qırqovulların nümayişi üçün fazanarium ekspozisiyası yaradılıb. Digər tərəfdən, zooparkda nəsli kəsilməkdə olan bir çox nadir heyvan növlərinin canlı genofondunun saxlanılması təmin edilir və çoxaldılaraq təbiətə buraxılır.

**❑ Emil SALAMOĞLU, "Yeni Müsavat"**
**Fotolar müəllifindir**

# Axı niyə beləyik? - Macarlarla oyundan kənar barbarlıq...

## Millimizin növbəti qarşılaşmasına gəldik, yenə stadionda tum çıtladıq, qabığını tökdük, selofanları, plastik butulkaları yerə atıb getdik...

**Həftəsonu Avro-2020 seçmə oyunu çərçivəsində Azərbaycan-Macarıstan qarşılaşmasını izləməyə getmişdik. Görüşün sonunda bu sualı verməmək olmurdu - axı biz niyə beləyik?!**

Ona görə yox ki, həmin matçda qonaq komandaya 1:3 hesabı ilə məğlub olmuşduq. "Yol əhvalatı" filmində deyildiyi kimi, "Neftçinin udan günü olub ki?!" Ona görə ki, "Bakcell Arena" stadionunu tərk edəndə oturacaqlar adamı vahiməyə gətirirdi. Bu, ilk dəfə deyil. Tofiq Bəhramov adına stadionda da, başqa meydançalarda da görmüşük: dizə qədər tum qabıqları, selofanlar, plastik butulkalar, yerə tökülmüş zir-zibil və s. Axı niyə beləyik, niyə belə edirik?! Nə üçün mədəni toplum ola bilmirik?

Macar qonaqlar gəldilər, uddular, getdilər. Amma ikinci qonaq sayılan azərbaycanlı azarkeşlərin bir çoxu gəldilər, tum çırtladılar, qabığını ayaqlarının altına tökdülər, getdilər. Bu sırada oturmağımıza xəcalət çəkdik. Çünki "Qurunun oduna yaş da yanır" misalı yerinə düşür. Oyun başa çatdıqdan sonra bu sektordakı rüsvayçı mənzərəni görəndə deyinməkdən başqa çarə yox idi...

Doğurdan da, utandırıcı mənzərə idi: tum qabıqları zibil dağına çevrilmişdi, su qabları, tumların paketləri yerə atılmışdı, stadion bütünlüklə zibilliyə çevrilmişdi. Sözlər şəkillər qarşısında acizdir...

Heç olmasa tum qabığını səliqəli şəkildə yığışdırıb, bir sellofana töküb, stadionun çıxışındakı zibil qutularına atmaq olardı. Və bu acınacaqlı, barbar, meşşan mənzərəni gördükdə Bakıya gələn ərəb turistlərin özlərini pis aparmasından, Şəkidə oteli murdarlamasından, kirayələdikləri evi dağıdıb getmələrindən şikayətlənməyə nə qədər haqqımız çatır? Çatırmı?

Əslində, bu mədəniyyətsizlik varsa, ilk növbədə mühafizə xidməti növbəti oyunlarda stadiona tum satanları buraxmamalı, stadion rəhbərliyi inzibati addımlar atmalıdır.







Millimizin oyununa gəlincə, xorvat baş məşqçimiz Nikola Yurçeviç 1:3 məğlubiyyəti gözlənildiyi kimi, nikbin şərh elədi, sanki belə də olmalı imiş. Sitat: "Azarkeşlərimizə bugünkü gözəl dəstəyə görə təşəkkür edirəm. İlk 10-15 dəqiqədə həyəcanlı idik. Macarlar standart vəziyyətlərdən təhlükəli olurdular. Onlara da belə anlarda hədiyyə etdik. Getdikcə oyunu bərabərləşdirdik, döyüşdük. Futbolçularımızın performansı pozitiv, topa nəzarət ürəkaçan idi. Ancaq ən önəmli olan nəticəni qazana bilmədiyimiz üçün məyusam. Bu gün yeganə fərq standart vəziyyətlər idi. Xorvatiya ilə matçda da belə vəziyyətdən qol buraxmışdıq. Hesabı 1:2 etdikdən qısa müddət sonra çox tez qol buraxdıq. Bu oyunda daha artığına layiq idik".

Macarıstan yığmasının baş məşqçisi Marko Rossi isə hesab edir ki, bəzi epizodlarda əziyyət çəkiblər: "İlk hissədə belə anlar oldu. Amma ikinci hissəni daha yaxşı keçirdik. İkinci hissədə qol imkanları yaratdıq və dəyərləndirdik. Bundan sonra da çoxlu qol şansımız oldu. İki top fərqi ilə önə keçəndən sonra daha ehtiyatlı oynamağa başladıq və növbəti matç barədə fikirlər yarandı".

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**
**Fotolar müəllifindir**

# Bu insanlara Günəş vannası olmaz - həkimdən xəbərdarlıq

## Yayda düzgün günəşlənməyin "qızıl qaydaları"...

**Hər dəfə dəniz mövsümü gələndə insanların əksəriyyəti vaxt tapdıqca dənizə çimməyə, günəşlənməyə gedir. Əlbəttə ki, isti qum, gündən qaralma, dəniz suyu insan orqanizmi üçün çox faydalıdır. Məsələn, günəş şüası qəbul edərkən bədəndəki bioloji fəal maddələr, endokrin sistemlərin fəaliyyəti daha da aktivləşir, maddələr mübadiləsini yaxşılaşdırır, orqanizmin infeksiya və digər xəstəliklərə qarşı müqavimətini artırır. Beləliklə, günəşdən qaralma orqanizmin müdafiə reaksiyalarından biridir.**



Həmçinin Günəş vannaları sızanaqlardan əziyyət çəkənlər üçün faydalı hesab olunur. Ultrabənövşəyi şüalarla aparılan müalicələr zamanı piy vəzilərinin təmizlənmə üsullarından biri də dərinin üst qatının soyulmasıdır. Soyulma zamanı dərinin ölmüş hüceyrələri ilə birgə piy vəzilərinin ağzını bağlayan hissəciklər də təmizlənir və onun funksiyaları bərpa olunur. Günəş vannaları hətta psoriaz xəstələri üçün də faydalıdır.

Lakin məlum olduğu kimi, Günəş şüaları altında həddən artıq qalmaq bədəndə yanıqlar əmələ gətirir, günvurmaya səbəb olur. Belə ki, Günəş şüası altında 10 dəqiqə qaldıqda Günəş dərini bir az qıcıqlandırır və yüngül qızartı əmələ gəlir. Daha uzun müddət qalanda dəri iltihablaşır və şişir. Şüalanma uzananda yanma nəticəsində dəri sulanır və suluqlar əmələ gəlir. Ağır yanıqlar zamanı termorequlyasiya prosesi pozulur.

Ekspertlər qeyd edirlər ki, xüsusən də ağ dərisi olan insanların Günəş şüasını çox qəbul etməsi çox zərərlidir. Yalnız qara və tünd dərisi olanların orqanizmində kifayət qədər melanin aydırır və orqanizm özünü həmin şüaların zərərli təsirindən qoruya bilir.

Maraqlıdır, bəs ümumiyyətlə hansı insanların dənizdə qaralması məsləhət görülmür? Mövzu ilə bağlı tibb elmləri doktoru, professor Adil Qeybulla "Yeni Müsavat"a danışdı: "Ümumiyyətlə, dərisində çoxlu sayda xallar, törəmələr, piqmentlər olan şəxslərin Günəş vannası qəbul etməsi məqsədəuyğun sayılmır. Doğrudur, vitamin D bədən üçün yaxşıdır, lakin bu, normal həddə olmalıdır. Belə ki, normadan artıq olanda dəri yanır və neqativ təsirlər yaranır. Həmçinin dəri xərçəngi olanlar, əməliyyat keçirənlər yaxşı olardı ki, dənizə gedəndə daim kölgəlikdə olsunlar. Əks halda, bu, onlar üçün təhlükəli ola bilər. Ümumiyyətlə isə, hər kəsin 15 dəqiqəlik Günəş vannasının qəbulundan sonra kölgəliyə keçməsi məsləhət olunur. Çünki gün şüaları altında çox qalmaq bir çox hallarda günvurma ilə nəticələnir ki, bu da orqanizm üçün təhlükəlidir. Günvurma zamanı şəxsə mütləq ilk tibbi yardım göstərilib, kölgəyə aparmaq, daha sonra isə təcili yardıma xəbər etmək lazımdır".

Mütəxəssislər həmçinin qeyd edirlər ki, təkcə bədənində xalları çox olan şəxslər deyil, həmçinin hamilələr, 3 yaşına qədər olan uşaqlar, ginekoloji və infeksion xəstəliyi olanlar, dağınıq sklerozlar, kron, insulin alan diabetlər, vərəm xəstələrinin günəş vannası qəbul etməsi məsləhət olunmur.

Yayda sağlam qaralmış dəriyə sahib olmaq üçün aşağıdakı detallara diqqət etmək lazımdır:

öncə SPF tərkibli kremlər almaq məsləhət olunur. Bu kremlər dərini Günəşin ultrabənövşəyi şüalarından qoruyur. Bədəni kremlə qoruyan zaman dodaq və saçları unutmaq olmaz. Çünki saçlar zədələnə, dodaqlar da günəş şüalarının təsiri altında çatlaya bilər. Buna görə də saç və dodaqlara da SPF tərkibli yağlar çəkmək olar.

Hər zaman qeyd olunur ki, qaralmaq üçün ən yaxşı vaxt saat 9-dan 11-ə kimidir. Dərinin dözümlülüyünü artırın, Günəşin altına çıxmazdan əvvəl qoruyucu krem çəkin. Tətilə çıxmazdan 3 həftə əvvəlcədən hər gecə qoruyucu krem çəkin. Beləcə, dərinizin üst qatı güclənəcək və yanıqlara qarşı dayanıqlı olacaq. Sızanaqların qarşısını alın. Günəş kremi alarkən tərkibini mütləq oxuyun. Bəzi kremlər dəri və kürəkdə sızanaqların çıxmasına səbəb ola bilər. Makiyajla dənizə girmək, qaralmaq olmaz. Çünki günəş şüalarının təsiri nəticəsində makiyaj üzdə ləkələr əmələ gətirə bilər. Və ən əsası, Günəş eynəklərindən mütləq istifadə etmək lazımdır. Çünki günəş şüalarından qoruyan eynəklər gözlərin kənarlarının qırışmasının qarşısını alır.

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**



# Azərbaycanlı uşaq Moskvada faciəvi şəkildə öldü

**Rusiyanın paytaxtı Moskvada yaşayan azərbaycanlı ailənin övladı bədbəxt hadisə nəticəsində vəfat edib.**

Publika.az xəbər verir ki, Moskva şəhərində 4 yaşlı Həsənov Miqdad Əli oğlu yaşadığı binanın doqquzuncu mərtəbəsindəki mənzilin pəncərəsindən yıxılıb. Azyaşlı hadisə yerində vəfat edib. Faktla bağlı araşdırma aparılır.

YENİ MÜSAVAT
N 123 (7293) 10 iyun 2019



# Yay istirahəti üçün seçim - 96 saat avtobusla yol gedək, yoxsa...

## Qaynar turlar "tərlədir", avtobus turları isə insanların əhdini kəsir

**Yay fəslinin ilk günlərində bir çoxları tətil üçün səmərəli və maraqlı təkliflər barədə düşünür. İlin 11 ayı çalışıb, 3-4 həftə istirahət etmək istəyən vətəndaş istər-istəməz keyfiyyətli və münasib turpaketləri nəzərdən keçirir.**

"Yeni Müsavat" bu günlərdə çox aktual olan bu sualların cavabı ilə bağlı turizm şirkətləri arasında gəzişmə edib. Kim daha çox harda istirahət edir? Tətil şərtləri harda daha uyğundur?

Öncə Türkiyə versiyasından başlayaq. Biletlər ən çox Antalya, Bodrum, Kuşadası, Marmaris şəhərlərinə alınır. Ən ucuz istiqamət olan Alanyaya biletlərin qiyməti 370-380 dollar təşkil edir.

Ən ucuz biletlər isə gündəlik 49 dollardan başlayan qiymətlərlə Gürcüstana olan avtobus turlarıdır.

Türkiyəyə ən ucuz səyahətin Alanya bölgəsinə olduğu qeyd edilir. Bir qədər baha olan Bodrum, Kuşadası, Fethiye kimi şəhərlərdə biletlərin qiyməti hotel seçimindən asılı olaraq 600-700 dollar arasında dəyişir.

Üçulduzlu hotellərdə bir nəfərin istirahəti 450-550 dollara (altı gecə yeddi gün hoteldə qalmaq, aviabilet, sığorta, transfer, qidalanma daxil) başa gəlir.

AVTOBUS TURLARI

Amma seçimlər arasında avtobus turları da var. Məsələn, siz internetdə "Möhtəşəm Antalya turları" başlığı altında xeyli elana rast gələ bilərsiz. Bu turların qiyməti 219 dollardan başlanır. Qiymətə 5 gecə 6 gün hoteldə gecələmə, komfortlu avtobus, professional tur rəhbəri vədi daxildir. Amma bir maraqlı detalla. Hesab edək ki, 17 iyunda səfər başlanır. Bu səfər 26 iyunda bitir. Yəni, 10 gün davam edən bir turunda 4 gün yol macərasından söhbət gedir. 2 gün gediş, 2 gün gəliş. Toplam 96 saat avtobusda yol getmək... Kimə bu şərtlər uyğundur, bilinməz. Amma fakt faktlığında qalır. Üstəlik, bu cür ucuz tur paketlərdə seçilən hotellər də aşağı səviyyədə olur. Ən yaxşı halda turistin payına 3 ulduzlu hotel, ya da butik hotel düşür. Orda da heç də hər zaman gündə 3 dəfə qidalanma şərti yer almır.

Kabuleti-Batumi turları isə nisbətən daha az zaman səfəri özündə ehtiva edir. İyun ayı üçün Kabuleti-Batumi turları var. Bu da 99-119 dollardır. Qiymətə avtobusda gediş-dönüş, 3 ulduzlu oteldə 5 gecə qonaqlama, gündə 3 dəfə qidalanma, eyni zamanda, Batumi ekskursiyası daxildir.

Bir də qarşımıza tez-tez çıxan "qaynar tur" başlıqlı elanlar var. Əməkdaşımız bu yaxınlarda "Antalyada qaynar tur - 6 gecə, 7 gün - 168 dollar" başlığı ilə bir elanla maraqlanıb. Məlum olub ki, elan ancaq iyunun əvvəli üçün keçərlidir. Uçuş da Tiflisdən olmaq şərtilə. Bundan başqa, qaynar turlar əsasən iyun və sentyabr aylarının əvvəllərində olur. İyul-avqust ayları isə turistlərin daha çox axın etdiyi aylar olduğu üçün endirimlərdən, qaynar turlardan söhbət belə gedə bilməz.

### Uçuş Tiflisdəndirsə, nə qədər qazancımız var?

Azərbaycanlı turistlər uzun illər boyunca Türkiyənin istirahət bölgələrindən tur paket əldə etmək üçün "Tiflis vasitəsilə" versiyasına üstünlük verir. Bəli, uçuşlar Tiflis aeroportundan olanda qiymətlər nisbətən ucuz olur. Əməkdaşımız 4 nəfərlik ailənin Tiflis üzərindən Antalya səyahəti ilə maraqlananda məlum olub ki, bunun üçün 2300 manat ödəmək lazımdır. Bura dördulduzlu oteldə gecələmə, bilet pulu daxildir. Amma uçulduzlu hotellərdə Tiflisdən getmək şərtilə, 1 həftə boyunca istirahət etmək 2100 manatdır.

Amma eyni hotellərə Bakıdan uçmaq, bir həftə istirahət etmək istəyirsizsə, minimum 3500 manatı cibinizdən çıxarmalısınız. Yəni, biz sizə ailəvi paketi ona görə yazırıq ki, bunun ümumən ailə büdcəsinə olan təsirini hesablaya biləsiz. Məlumdur ki, azərbaycanlılar nadir hallarda yay tətilini ailəsi olmadan, təkbaşına keçirir. O baxımdan hesablama da ailə boyu olmalıdır.

Daha bir məqam isə ödəmə şərtləri ilə bağlıdır. Bir çox şirkətlər ödəməni hissə-hissə şərti ilə qəbul edir. Tutaq ki, siz paketi bu gün, avqust ayı üçün alırsınızsa, o zaman onun 30 faizini indidən, qalanını isə hissə-hissə uçuşa qədər ödəməlisiniz. "Bolkart"la paket əldə edənlər də var. Bir sözlə, demokratiyada çarələr tükənmir. Önəmli olan bunu arzulamaq və büdcəni də uyğunlaşdırmaqdır.

### Niyə erkən rezervasiyadan yararlanmadıq?

Amma unutmaq lazım deyil ki, bu məqamda erkən rezervasiyanın üstünlüklərindən yararlananlar da var. Nədir erkən rezervasiyanın üstünlükləri?

Birincisi və təbii ki, ən önəmli məqam hotellə bağlıdır. Yaxşı bir hoteldə qalmaq, keyfiyyətli yuxu və mərkəzə yaxın olma kimi kriteriyalar insanın səyahətinə təsir edir. Yuxarıda da qeyd etdiyimiz kimi, hotellərin topdan satış etməsi və rəqabət şərtləri erkən rezervasiya zamanı qiymətləri çox aşağı salır. Siz də büdcənizə qənaət edəcəyinizdən qalacağınız hoteli istəyinizə uyğun şəkildə və rezervasiyanızı aylar öncədən seçə bilirsiniz.

Digər ikinci məqam isə ucuz təyyarə biletidir. Aylar əvvəldən dəqiqləşdirilmiş səyahət planınıza uyğun təyyarə bileti tapmaq da asan olacaq. Havayolu şirkətləri uçuş biletlərini oturacaqları blok-blok ayıraraq satışa çıxarırlar. Hər blokun ayrı qiyməti olur və bir blok dolduqda digəri satışa çıxarılır. Buna görə də, uçuş tarixinə az qalmış bilet qiymətləri yüksəlir. Uçuş tarixiniz dəqiqləşdikdən sonra axtarış edərək, fərqli alternativlərə göz gəzdirə və ən ucuz təyyarə biletini ala bilərsiniz. Beləliklə səyahətinizin ən vacib büdcə maddələrindən biri də problemsiz həll ola bilər.

Tətilinizi əvvəlcədən planlamadıqda həmin tarixə az qalıbsa, istədiyiniz oteldə, istədiyiniz otağı tapmaq çətin olacaq. Erkən rezervasiya sistemində hər şeyin yaxşısını seçmək və sonradan sürpriz yaşamamaq rezervasiya edənin faydalana biləcəyi imkanlardan biridir. Təxmini təsəvvür yaransın deyə, hər hansı bir kinoteatra getdiyinizdə salonda bütün oturacaqların boş olduğunu və bütün seçimlərin sizin üçün olduğunu düşünün...

Yeri gəlmişkən, səyahət zamanınız dəqiqləşdiyindən həmin tarixlərdə müəyyən olunmuş konsert, tədbir, ekskursiyalar və digər fəaliyyətlər üçün rezervasiya etdirmək, tematik park, muzey və nəqliyyat kimi digər detalları da aylar əvvəldən satın alaraq həm rahat planlama etmək, həm də əlavə endirim qazanmaq mümkündür.

Planlarınızda hər hansı bir dəyişiklik olması halında ödədiyiniz məbləğin tam və ya müəyyən qismini geri qaytarmağınız üçün də erkən rezervasiya şərtləri çox uyğun ola bilər. Bəzi hallarda bu dəyişiklik və ləğv etmə imkanları tətilinizin başlamasına 72 saat qalmışa qədər belə verilə bilər.

Bir çox səyahət şirkəti müştərilərinin daha sonra zərərçəkən olmaması üçün erkən rezervasiyalarda əlavə sığorta xidməti də təklif edir. Xüsusən tətilə çıxılması planlaşdırılan zaman aralığında hər hansı bir dəyişiklik olma ehtimalı varsa, erkən rezervasiya sığortası həyata keçirilərək, bəlli bir müddət qalana qədər ləğv etdirə bilmə, ya da fərqli bir tarixə təxirə salma şansı yaradılır.

Azərbaycanın turizm bazarı ilə müqayisədə Türkiyədə erkən rezervasiya sistemi xeyli populyardır. Məsələn, Türkiyəyə gələn yerli və xarici turistlərin sayı 2018-ci ilin ilk 9 ayında 2017-ci ilin eyni dövrünə görə 18,5% artımla 36 milyona çatıb. Xüsusilə, Avropadan gələn turist sayında artım davam edir. Bu şəkildə davam edərsə, bu ilin sonunda ölkəyə gələn turist sayı 45 milyona çatacaq.

İstirahətin planlaşdırılmasında erkən rezervasiya həm sektor, həm də istirahət edənlər üçün böyük əhəmiyyət kəsb edir.

Çünki erkən sifarişin ilk dövründə endirim faizləri 30-50 % arasındadır. Əvvəlki illərdən fərqli olaraq, bu il erkən rezervasiya kampaniyasında tələbatların 40% ətrafında artımı gözlənilir. 2018-də xüsusilə, mədəniyyət turları seçilib. Bu ardıcıllığın 2019-cu ildə də davam etməsi gözlənilir.

### Məzuniyyət məsləhətləri - bunları yaddan çıxarmayın

İstirahət günlərinizi artırmaq istəyirsinizsə, təqvimi önünüzə qoyun və məzuniyyətinizi planlaşdırın. Məzuniyyətə həmişə bazar ertəsi çıxın, bu zaman artıq siz şənbə günündən səyahətə çıxa bilərsiniz. Üstəlik, bayram günləri məzuniyyətinizə düşürsə, avtomatik istirahət günləriniz uzanacaq. Məzuniyyət pulunun miqdarı hansı ayda məzuniyyətə çıxmanızdan asılıdır. Məzuniyyət pulu belə hesablanır: son 12 ayın maaşı toplanır 12-yə bölünür, daha sonra alınmış rəqəm 30,4-ə bölünür və məzuniyyət günlərinə vurulur. Həkimlər hesab edirlər ki, insan orqanizminin tam istirahəti üçün 4 həftəlik məzuniyyət mütləqdir. Dünyada ən uzun məzuniyyət sahibləri fransızlar, almanlar, ispanlar, danimarkalılar və braziliyalılardır. Ən qısa məzuniyyət günləri isə ABŞ-da (14 gün), Yaponiyada (11 gün), Cənubi Koreyadadır (10 gün).

Hepimizaileyiz.com saytının apardığı araşdırmaya görə, tətil zamanı insanlar ilk növbədə yol qəzalarından əziyyət çəkir. Qəzadan sonra insanların panikaya düşməsi davranış pozğunluğu ilə nəticələnir ki, bu da ciddi, xoşagəlməz nəticələr verir.

Məsələn, yol qəzasında yaralananların 50 faizinin xəstəxanaya çatdırılmadan dünyasını dəyişdiyi bildirilir. Şüurlu ilk yardım insan həyatını qurtarmağın yarısıdır. Şüuru yerində olmayan, insan orqanizmi barədə məlumatı olmayanların yaralılara toxunmaması məsləhət görülür. Bu halda onlar "qaş düzəltdikləri yerdə göz çıxara bilərlər". Məsələn, yaralının boynu, kürəyi çox bərk ağrıyırsa, onun iflic olma ehtimalı nəzərə alınmalı və odeyalın üstünə uzadılmalıdırr. Bundan başqa, hər iki tərəfinə çanta, qum torbası kimi əşyalar qoyulmalıdır ki, silkələnməsin. Onu ən qısa müddət ərzində xəstəxanaya çatdırmaq lazımdır.

Xüsusən tətilini ölkə xaricində, ya da dağ ərazilərində keçirənlər idmana meyl edir. Tətil məkanlarında tennisdən tutmuş, paraşütdən hoppanmağa qədər bir çox idman növlərini görən tətilçilər onların hamısını bir-bir sınaqdan keçirməyə çalışır. Amma il boyu idmanla məşğul olmamış şəxslərin birdən-birə bu qədər yüklənməsi ciddi təhlükədir. Orqanizm öyrəşmədiyi üçün yüklənmiş idman proqramı insanları ciddi sağlamlıq problemləri ilə üz-üzə qoyur.

Məsələn, yaşı 40-ı keçmiş, siqaret çəkən, idman vərdişi olmayan kişilərin tennis oynaması fəsadsız ötüşmür. Onlar daha çox topuqlarının yaralanması ilə qarşılaşırlar. Siqaretdən istifadə edən, eləcə də spirtli içki içənlərdə əzələ yırtığı özünü daha çox göstərir.

❑ **Sevinc TELMANQIZI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 123 (7293) 10 iyun 2019



## Barbiyə bənzəmək üçün 15 plastik əməliyyatdan keçdi

**Bolqarıstandan olan 21 yaşlı tələbə Andreya İvanova bir il ərzində Barbi gəlinciyə bənzəmək üçün 15 estetik əməliyyatdan keçib. Bu barədə "The Sun" nəşri xəbər verib. Qız transformasiyalara ötən ildən getməyə başlayıb və ayda minimum bir dəfə prosedurlara qatılıb. O, hər gedişində dodaqlarını daha da böyüdüb. Ona elə gəlirmiş ki, dodaqlarının ölçüsü kiçikdir. Qız eyni zamanda sinəsini böyütmə əməliyyatı da etdirib.**

Tələbənin sözlərinə görə, onun ən böyük arzusu Barbi gəlinciyinə bənzəməkdir. Amma sosial şəbəkə istifadəçiləri deyirlər ki, qız animasiya serialı olan "Looney Tunes"dəki Daffi Daka, ya da hansısa yaratığa bənzəyir: "Bu cür çirkinləri yaradan həkimlər mütləq türməyə göndərilməlidir. Sən vaxtilə necə də gözəl bir qız idin. Mən soruşmaya bilmirəm ki, sənin başındakı nədir? Ora boşdur? Sən içi doldurulmuş bir gəlinciyə bənzəyirsən" - bunu da şərh yazanlar bildiriblər.

Andreyanın özü isə seçimindən olduqca razıdır və hesab edir ki, insanlar istədikləri, arzuladıqları kimin görünməkdə sərbəstdirlər. Hətta onların görüntüsü gözəllik standartlarından uzaq olsa da, onların belə etmək hüququ var.

Daha öncə xəbər verilmişdi ki, Londonda yaşayan bir polyak qız Barbi gəlinciyinə bənzəmək üçün 50 min funt sterling xərcləyib. İlk sinə böyütmə əməliyyatını 18 yaşında edən qız daha sonra yeddi dəfə onun ölçüsünü dəyişib. Qız dodaqlarının, burnunun və yançaqlarının da quruluşunu dəyişib.

# Kök qadınlar 8 il az yaşayırlar

**Rusiya mətbuatının yazdığı xəbərə görə, kök qadınların qocalmadan ölmək riski nərmə-nazik qadınlarla müqayisədə düz 2 dəfə artıqdır. Eksperiment zamanı alimlər yaşı 20-80 arasında olan təxminən 5000 qadını müayinə edib.**



Məlum olub ki, kök qadınların 60 yaşadək yaşamaq şansı daha azdır. Əgər artıq çəki hələ gənc yaşlardan yığılıbsa, bu zaman risk daha da yüksəkdir. Alimlər bildirir ki, bütün ömrü boyu artıq çəkidən əziyyət çəkən xanımlar digərləri ilə müqayisədə təxminən 8 il az yaşayır.

# Sərxoş oldu, körpəsinin üstünə uzanıb onu öldürdü

**ABŞ-da 4 aylıq körpəsini gecə klubuna aparan, sərxoş halda onun üzərində yuxuya gedən və uşağının ölümünə səbəb olan qadına məhkəmə cəza verib. 26 yaşlı Marina Tilbi bacıları və 4 aylıq körpəsi ilə gecə klubunda sərxoş olduqdan sonra evinin yataq otağında körpəsinin üstündə yuxuya gedib. Hadisəni görən bacılardan biri yataq otağına girərək, Tilbinin altında qalan 4 aylıq körpəni xilas etməyə çalışıb. Amma onun ağzından qan gəldiyini fərq etdiyi üçün dərhal xəstəxanaya aparıb. Körpə aparıldığı xəstəxanada dünyasını dəyişib.**

Məhkəməyə çıxarılan və günahkar olduğunu etiraf edən Tilbinin vəkili Difed Tomas isə müvəkkili barədə aşağıdakıları deyib: "Çox sərxoşdu. Uşağını itirməsinin verdiyi kədər hissi də içini dolduracaq". Uşağın atası ilə də görüşməyən Tilbinin yaşanan olaya görə açıq şəkildə acı çəkdiyi bildirilib.

İngilis mediası yazıb ki, Marina Tilbi bu səhlənkarlığına görə 2 il 4 ay müddətinə həbs cəzasına məhkum olunub.





## Valideyndə bu xasiyyət varsa, uşaq utancaq olur

**Amerikalı alimlər müəyyənləşdiriblər ki, çox vaxt qızlar oğlanlara nisbətən daha utancaq olurlar. Bu, onların 8 aylıqda tanımadıqları insanlardan çox qorxduqları zaman aşkara çıxır. Lakin oğlanlar ayrılığa daha güclü reaksiya verirlər, ona görə də əksər hissəsi erkən yaşlarında uşaq bağçasına getmək istəmir.**

Utancaqlıq mehriban, güzəştə gedən, yumşaq xasiyyətli uşaqlara daha çox xasdır. Uşaqlarda utancaqlıq, xüsusən də qızlarda bu müəyyən dərəcədə valideynlərin şəxsiyyətindən və xarakterindən də asılıdır. Psixoloqlar müəyyənləşdirib ki, ünsiyyəti sevməyən, özünə arxayın olan, həyəcanlı, vasvası xarakterə malik, zahirən ciddi, əslində isə uşaqla formal tərbiyə və münasibət metodlarına əsaslanan qaraqabaq valideynlərin uşaqlarında utancaqlığa daha çox təsadüf edilir.





**QOÇ** - Yaxşı olar ki, bütün vacib işlərinizi təxirə salasınız. Əks təqdirdə cəhdləriniz boşa çıxacaq. Ulduzlar əsəblərinizi qorumağı, ümumiyyətlə, maksimum ehtiyatlı olmağı məsləhət görür.


**BUĞA** - Sizin üçün böyük əhəmiyyət kəsb edən şanslar çoxdur. Bu baxımdan günün birinci yarısında qarşınıza çıxan fürsətlərdən əməlli-başlı faydalana bilərsiniz. Göy qübbəsi bəxtinizin gətirəcəyini bildirir.


**ƏKİZLƏR** - Bu gün sizə qarşı təzyiqlər arta bilər. Bu səbəbdən də hər bir addımda tədbirli olmağa çalışın. Hər dedi-qoduya reaksiya verməyin. Etibarına əmin olmadığınız adamlarla iş görməyin.


**XƏRÇƏNG** - İşgüzar sövdələşmələrinizi sürətləndirin. Saat 13-16 arası iştirakçısı olduğunuz hər bir danışıq xeyrinizə yönələcək. Qalan müddətdə isə adi işlərlə məşğul olmalısınız.


**ŞİR** - Bu gün hər hansı riskə getmək yolverilməzdir. Belə ki, istənilən addımınız maneələrlə üzləşdiyindən buna səy də göstərməməlisiniz. Yeni təkliflərə belə tələsik razılıq verməyin.


**QIZ** - Şəxsi büdcənizdə müəyyən artımlar gözlənilsə də, bu təqvimdə mübahisəsiz keçinməyəcəksiniz. Həmkarlarınızla soyuqlaşma ola bilər. "Dinc-yanaşı yaşama" prinsipinə riayət edin.


**TƏRƏZİ** - Uğurlu gün hesab etmək olar. Fəaliyyətlə bağlı nəzərdə tutduğunuz perspektivlərin əksəriyyətini reallaşdıracaqsınız. Nahardan sonra sevindirici xəbərlər gözlənilir.


**ƏQRƏB** - Yeni təkliflər alacağınız gözlənilir. Lakin qəti addım atmazdan qabaq yaxşı-yaxşı götür-qoy etməlisiniz. Gün ərzində əzmkarlığınızı artırmaqla bir neçə sürprizin şahidi ola bilərsiniz.


**OXATAN** - Tabeçiliyində fəaliyyət göstərdiyiniz rəhbərlərlə, həmçinin həmkarlarınızla münasibətləri mülayimləşdirin. Bu, gələcək perspektivlərinizin reallaşmasında əhəmiyyətli rol oynaya bilər.


**OĞLAQ** - İxtiyarınızda olan bu təqvim daha çox uğurlar vəd edir. Amma qarşılıqlı münasibətlərdə güzəştə getməyi də bacarmalısınız. İndiki məqamda zorakılıq heç bir effekt vermir.


**SUTÖKƏN** - Təxminən saat 12-yə qədər əsəblərinizi cilovlamağınız məsləhət görülür. Yoxsa götürdüyünüz öhdəlikləri başa çatdıra bilməyəcəksiniz. Nahardan sonra varlanma ehtimalınız var.


**BALIQLAR** - Olsa-olsa pulla bağlı sevinəcəksiniz. Digər işlərdə isə elə bir uğur gözlənilmir. Son vaxtlar qərarlarınızdakı yanlışlıq sizə başağrısı verə bilər. Məsləhətləşmədən çəkinməyin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Soyuqqanlı qatili 43 il axtardılar, xeyirxah təqaüdçü çıxdı



Amerikada gənc cütlüyün qətlini on illər boyu araşdırsalar da, 43 il sonra məlum olub ki, bu qətli həyata keçirən şəxs hazırda 82 yaşı olan təqaüdçü Reymond Vannivenhovendir. Qətlin üstünün açılmasına səbəb isə qurbanların üzərindəki izlərin növbəti dəfə araşdırılması olub. Kriminalistlər izlərin arxasınca düşəndə qatillə bağlı bütün detalları üzə çıxarıblar. Hər nə qədər yaşlı kişi bu qətli etmədiyini desə də, ip ucları cinayəti onun üzərinə gətirib çıxarıb. Bu nəticədən ən çox şoka düşən isə yaşlı kişinin qonşuları olub. Onlar Reymondu xeyirxah, insanlara, uşaqlara yardım edən biri kimi tanıdıqlarını deyiblər.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dəqiqə" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 3.070